RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 266 (8582) CÜMƏ, 18 dekabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# 44 GÜNDƏ DƏYİŞDİRİLƏN REALLIQLAR

**"Bu gün mən deyirəm: hər kəs mövcud olan reallıqlarla barışmalıdır".**

**İlham ƏLİYEV**

Reallıq hazırda mövcud olanlardır!

Reallıq indiki zamanda dəyişə bilmədiyimiz, qəbul etmək zorunda qaldığımız gerçəklikdir!

Reallıq başqalarının da gördüyü, bildiyi və təbii yanaşdığı faktlardır!

*Reallıq heç də həmişə qanunamüvafiq olmur!*

*Reallıq heç də həmişə hüququn, ədalətin mövqeyini əks etdirmir!*

*Reallıq əbədi də olmur!*

**Onu müxtəlif üsullarla - danışıqlar və razılaşmalar yolu, yaxud qanunun tətbiqi, ən nəhayət, gücün əli ilə dəyişmək mümkündür!**

❖ ❖ ❖

*27 il idi ki, acı reallıqla üz-üzə qalmışdıq!*

*Ərazilərimizin 20 faizi işğal edilmiş, 20 min vətən övladı şəhid olmuş, 1 milyondan çox qaçqın və məcburi köçkün ordusu yaranmışdı.*

**Bunu bütün dünya görürdü, bilirdi və təsdiq edirdi.**

**Həm də nəinki bilirdi, işğalçı Ermənistanın öz qoşunlarını işğal etdikləri ərazilərdən çıxarması üçün dünyanın ən mötəbər qurumu - BMT-nin Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmiş, ATƏT-in Minsk qrupu yaradılaraq münaqişənin sülh yolu ilə həlli üçün 3 həmsədr dövlətə mandat verilmişdi.**

ATƏT-in Minsk qrupunun üzvlərinin - ABŞ, Fransa və Rusiyanın təmsilçiləri otuz ilə yaxın idi ki, vaxtaşırı Yerevana və Bakıya gedib-gəlir, hərdən müxtəlif dövlətlərin ərazilərində münaqişə tərəfləri olan dövlətlərin başçılarının və ya xarici işlər nazirlərinin görüşlərini təşkil edir, sonda da bəyan edirdilər ki, münaqişə tərəfləri hansı qərarı qəbul etsələr, onu dəstəkləyəcəklər!

Münaqişə tərəflərindən biri olan Ermənistan ATƏT-in uzun illər boyu "əziyyətlə" hazırladığı "baza prinsiplərini" qəbul etmək istəmir, Azərbaycan isə bir qarış torpağını heç kəsə güzəştə getməyəcəyini söyləyirdi.

Tərəflərdən biri "millətlərin öz müqəddəratını təyin etməsi hüququnu" bayraq edir, digəri isə ərazi bütövlüyünün əsas olduğunu söyləyirdi.

*ATƏT fəaliyyəti dövründə Azərbaycanın ərazi bütövlüyünü qəbul etsə də, bir kərə belə Ermənistanın işğalçı dövlət olduğunu dilinə gətirmədi!*

*ATƏT fəaliyyəti dövründə daim "tarazlaşdırma yolunu" əsas tutdu, işğalçı ilə işğala məruz qalana heç bir fərq qoymadı!*

*ATƏT bir dəfə də Ermənistana sanksiya tətbiq etmək barədə düşünmədi, bu məsələni gündəmə gətirmədi, hətta müzakirəyə belə çıxarmadı!*

*ATƏT də, BMT də, həmsədr dövlətlər də Ermənistanın bütün şıltaqlıqlarına dözdülər, onun danışıqlardan müxtəlif bəhanələrlə yayınmasına, sülhə gəlmək istəməməsinə "səbirlə", "təmkinlə" yanaşdılar.*

**Diasporu tərəfindən maliyyələşdirilən və müdafiə olunan, Rusiyadan pulsuz silah-sursat alan, işğal etdiyi ərazilərdə uzun illər boyu müdafiə səngərləri və istehkamları quran Ermənistan isə torpaqları qaytarmaq barədə düşünmürdü də!**

**Hətta axırda o qədər qudurdu ki, baş nazir Paşinyan "Qarabağ Ermənistandır nöqtə" açıqlamasını verdi!**

Bundan sonra da ATƏT özünə "sadiq" qaldı, münaqişənin "hərbi yolla həlli variantının" mümkünsüzlüyü üzərində israrla dayandı, "sülh danışıqlarının" davam etdirməsinin vacibliyini göstərdi.

Artıq "mövcud reallıqla hesablaşmaq" barədə Azərbaycana ismarıclar eşitdirilməyə başlanmışdı...

❖ ❖ ❖

*Ermənistanın havadarları və müdafiəçiləri bircə məsələni diqqətdən yayındırmışdılar:*

*Azərbaycana İlham Əliyev rəhbərlik edir!*

*O, heç zaman işğalla barışmayacağını, bir qarış torpağı belə düşmənə güzəştə getməyəcəyini, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına icazə verməyəcəyini dəfələrlə bəyan etmişdi.*

**Həm də deyəsən bilmirdilər ki, Azərbaycan Prezidenti İlham Əliyev sözünün sahibidir, dediyini edəndir!**

**Üstəlik, görünür, İlham Əliyevin dəmir iradəsindən, Azərbaycan xalqının əzmindən və öz rəhbəri ətrafındakı sarsılmaz birliyindən, habelə Azərbaycan Ordusunun qüdrətindən xəbərsiz imişlər!**

**Bütün bunlardan nəinki xəbərdar oldular, hətta şahidinə, dəyişikliklərin seyrçisinə çevrildilər!**

**Həm də bütün bunlar elə-belə, sakitliklə baş vermədi!**

*Ardı 3-cü səh.*

# Əfqanıstan Azərbaycanın ərazi bütövlüyü məsələsində hər zaman açıq mövqe nümayiş etdirib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Əfqanıstan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Amanullah Ceyhunun etimadnaməsini qəbul edib.



AZƏRTAC xəbər verir ki, etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir **Amanullah CEYHUN** dedi:

- Zati-aliləri cənab Prezident, Sizi salamlayıram. Əvvəlcə bu gün vaxt ayırıb məni qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Bu gün burada olmaq və Prezident Əşrəf Qaninin salamlarını çatdırmaq mənim üçün şərəfdir. O, Sizə böyük ehtiramını ifadə edir, möhkəm cansağlığı, Azərbaycan xalqına isə firavanlıq arzu edir.

Zati-aliləri cənab Prezident, Prezident Əşrəf Qani tərəfindən imzalanmış və mənim Əfqanıstanın qardaş Azərbaycana, gözəl ölkənizə səfir təyin olunmağım haqqında etimadnaməmi, habelə sələfimin geri çağırılmasına dair məktubu Sizə təqdim etməkdən şərəf duyuram.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

**Prezident İlham ƏLİYEV** dedi:

- Cənab səfir, xoş gəlmisiniz, sizi görməyə çox şadam. Xahiş edirəm mənim də salamlarımı və ən xoş arzularımı cənab Prezidentə və qardaş əfqan xalqına çatdırasınız. Biz dostluq və tərəfdaşlığımızı yüksək qiymətləndiririk. Deyə bilərəm ki, ölkələrimiz arasında münasibətlərin sürətli inkişafı dialoqumuzun intensivləşdirilməsinə dair hər iki tərəfin güclü niyyətini nümayiş etdirir. Sizin mənim Prezident Qani ilə görüşlərim haqqında məlumatınız var. Biz onunla Azərbaycanda, xarici ölkələrdə, müxtəlif beynəlxalq tədbirlər çərçivəsində dəfələrlə görüşmüşük. İstənilən beynəlxalq tədbirdə biz hər zaman görüşmək üçün vaxt tapırıq. Onu da deyim ki, bizim görüşlərimiz həmişə çox məhsuldar olur. Biz münasibətlərimizdə ciddi tərəqqiyə nail olmuşuq. Birgə səylərimiz nəticəsində regionda tamamilə yeni vəziyyət yaranmışdır. Bizim siyasi əlaqələrimiz heç vaxt olmadığı qədər güclüdür.

*Ardı 2-ci səh.*

# Azərbaycanı daha da məğrur edən Qələbə

## İlham Əliyevin Ermənistanı əzən dəmir yumruğu həm də respublikamızın beynəlxalq aləmdə nüfuzunu yüksəltdi, mövqelərini möhkəmləndirdi

2020-ci ili bütün dövlətlər pandemiya səbəbindən demək olar ki, eyni əhvali-ruhiyyə ilə yola salır. Azərbaycan üçün isə başa çatmaqda olan bu il tamamilə fərqli, həm də əlamətdardır. Çünki xalqımız işğal altında olan torpaqlarımızı azad edərək bütün tariximizə səs salan, onu şərəfləndirən möhtəşəm Qələbəyə imza atdı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu işğalçı Ermənistanı döyüş meydanında darmadağın edərək ərazi bütövlüyümüzü bərpa etdi. Ona görə 2020-ci il Azərbaycanın tarixinə Qələbə ili kimi yazıldı.

### Heydər Əliyevin yaratdığı etibarlı bünövrə

Ermənistanın Azərbaycana qarşı təcavüzü ötən əsrin 90-cı illərinin əvvəllərində Dağlıq Qarabağın və ətraf rayonların işğalı ilə nəticələnmişdi. Əlbəttə, bunun obyektiv səbəbləri vardı və torpaqlarımızın itirilməsi müstəqilliyimizin ilk illərindən hakimiyyətdə olan iqtidarların naşı siyasətinin nəticəsi idi. Əlbəttə, Ermənistan öz potensialı hesabına işğal planlarını gerçəkləşdirə bilməzdi. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsi ilə bağlı 4 qətnamə qəbul etsə də, beynəlxalq ictimaiyyətin susqunluğu, Ermənistana təzyiq və təsirlərin olmaması səbəbindən həmin sənədlərin tələbləri yerinə yetirilməmiş qaldı.

*Ardı 3-cü səh.*




# *Dünya Bankı:* Azərbaycan dünyanın ən islahatçı 10 ölkəsindən biridir

## "Doing Business 2020" hesabatında Azərbaycanın mövqeyi yaxşılaşaraq 191 ölkə arasında 28-ə yüksəlib

Dünya Bankı Qrupunun mühüm nəşrlərindən hesab olunan "Doing Business" hesabatında qeydə alınmış məlumat uyğunsuzluqları ilə bağlı Dünya Bankının Daxili Auditi tərəfindən aparılmış müstəqil araşdırmanın nəticələri elan edilib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən AZƏRTAC-a bildirilib ki, aparılmış müstəqil araşdırmanın nəticəsində Azərbaycanın "Doing Business 2020" hesabatında mövqeyi 6 pillə yaxşılaşdırılıb, ölkəmiz bir daha dünyanın "Ən islahatçı 10 ölkəsi" sırasına daxil olub.

Xatırladaq ki, 2020-ci il avqustun 27-də Dünya Bankı tərəfindən yayımlanmış press-relizdə bir sıra üzv ölkələrin "Doing Business" hesabatındakı məlumatlarının bankın daxilində emal edilməsi prosesində uyğunsuzluqlar aşkarlandığı, bu uyğunsuzluqların mahiyyətinin müəyyən edilməsi istiqamətində müstəqil araşdırma aparılacağı qeyd edilmişdi.

*Ardı 3-cü səh.*

# Koronavirusdan qorunmağın ən yaxşı yolu özünütəcriddir

Dünyanın kabusuna çevrilmiş COVID-19 bir ildir planeti iflic vəziyyətdə saxlayır. Bütün ölkələr infeksiyanın yayılmasının qarşısını almaq üçün müxtəlif tibbi-profilaktik tədbirlər həyata keçirir, dövlət rəhbərləri vətəndaşlarını qorumaq üçün lazımi addımlar atır, məhdudiyyətlər tətbiq edir. Lakin bunlara rəğmən pandemiyanı lokallaşdırmaq mümkün olmayıb. Hətta əksinə, vəziyyət getdikcə daha kritik hal alır.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) epidemioloji bülletenində qeyd olunub ki, son bir həftə ərzində dünyada daha 4.3 milyon nəfər koronavirus infeksiyasına yoluxub. Bu isə pandemiyanın başlanmasından bəri ən yüksək göstəricidir. Əvvəlki həftədə ən yüksək göstərici 16-22 noyabr tarixləri arasında qeydə alınmışdı. O vaxt dünya üzrə COVID-19-a 4 milyon yeni yoluxma halı baş vermişdi.

Hazırda Yer üzündə 74 milyona yaxın COVID-19-a yoluxma və təxminən 2 milyona qədər ölüm halı qeydə alınıb. Bu isə o deməkdir ki, dünyada yoluxanların ölüm faizi 2,2-dir. Qışın gəlməsi ilə bütün Avropada koronavirusa yoluxma sayında sürətli artım müşahidə olundu.

Azərbaycanda da son aylar sanitar-epidemioloji vəziyyət narahatedici məcraya yönəlib. Ölkədə koronavirusa gündəlik yoluxma halları sürətli templə yüksələrək 4 mini keçib. Bu da real olaraq gündəlik ölüm hallarının artmasına gətirib çıxarıb. Hazırda Azərbaycanda koronavirusa yoluxma üzrə ölüm faizi 1,1-dir.

### Məsuliyyətsizlik yoluxma sayının kəskin artmasına rəvac verdi

Etiraf edək ki, karantin rejimi yumşaldıqca insanlar arasında infeksiyaya qarşı laqeydlik, inamsızlıq, xəstələnməyəcəklərinə dair arxayınlıq yaranmışdı. Ölkədə Vətən müharibəsi başlayanda isə infeksiyadan qorunma qaydaları ikinci plana keçmişdi.

*Ardı 7-ci səh.*

# Əfqanıstan Azərbaycanın ərazi bütövlüyü məsələsində hər zaman açıq mövqe nümayiş etdirib

*Əvvəli 1-ci səh.*

Biz iqtisadi əməkdaşlıq və sərmayə layihələrinə dair çoxsaylı məsələləri müzakirə edirik. Bildiyiniz kimi, biz bununla bağlı artıq müəyyən ideyalar ortaya qoymuşuq. Biz dövlət sektoru ilə bağlı birgə işlər görmüşük və mən şadam ki, "ASAN xidmət" modeli artıq Əfqanıstanda tətbiq edilir. Bu, Prezident Əşrəf Qaninin Əfqanıstanın modernləşdirilməsi, əhaliyə müasir xidmətlərin göstərilməsi ilə bağlı baxışının təzahürüdür və belə bir mühüm inkişafda rol oynamağımız bizi fərəhləndirir.

Bununla yanaşı, əməkdaşlığımızın daha bir vacib elementi təhlükəsizlik məsələləridir. Bildiyiniz kimi, Azərbaycan artıq 20 ilə yaxındır ki, Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edir. Biz bütün bu illər ərzində ölkənizdə təhlükəsizliyin qorunmasına sadiqliyimizi nümayiş etdirmişik. Bildiyiniz kimi, biz müəyyən müddət əvvəl hərbçilərimizin sayını artırmaqla ölkənizdə təhlükəsizlik məsələsinə olan münasibətimizi, ölkənizdə təhlükəsizliklə bağlı siyasətimizi nümayiş etdirdik. Çünki təhlükəsizlik və sabitlik olmadan gələcək qurmaq çox çətindir. Biz bunları yaxşı bilirik. 1990-cı illərin əvvəlində biz də buna bənzər vəziyyətlə üzləşmişdik. Azərbaycanda pərakəndəlik, hərc-mərclik hökm sürürdü, siyasi, iqtisadi və hərbi böhran mövcud idi ki, bunlar ərazimizin bir hissəsinin itirilməsi ilə nəticələndi. Beləliklə, Prezidentin rəhbərliyi ilə hökumətinizin səyləri artıq bəhrəsini verir və biz modernləşdirmə proqramınızda iştirak etməkdən hər zaman məmnunuq. Hazırda regional nəqliyyat məsələlərində də irəliləyiş var. Şadıq ki, artıq Azərbaycan vasitəsilə Əfqanıstandan beynəlxalq bazarlara müəyyən yüklər nəql edilir. Biz məmnuniyyətlə öz nəqliyyat imkanlarımızı təqdim edirik. Bildiyiniz kimi, nəqliyyat sahəsi hər zaman mənim sizin Prezidentinizlə görüşlərimin gündəliyindədir və biz burada yaxşı irəliləyiş görürük. Regional geosiyasi vəziyyətdə dəyişiklikləri nəzərə alsaq, əlbəttə ki, əməkdaşlıq üçün yeni imkanlar yaranacaqdır. Fürsətdən istifadə edərək, Ermənistan-Azərbaycan münaqişəsinin həllində bizim ədalətli mübarizəmizi dəstəklədiyinə görə qardaş Əfqanıstana təşəkkürümü bildirmək istəyirəm. Əfqanıstan Azərbaycanın ərazi bütövlüyü məsələsində hər zaman açıq mövqe nümayiş etdirib. Bizi hər zaman dəstəkləyib və Prezident, xarici işlər naziri və digər yüksək rütbəli məmurlar səviyyəsində bu məsələni vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və həqiqət bizim tərəfimizdədir. Eyni zamanda biz bu dəstəyi müharibə zamanı da hiss etdik. Əfqanıstan Azərbaycana ictimai şəkildə dəstək verən ilk ölkələrdən oldu. Biz buna görə minnətdarıq, bütün Azərbaycan xalqı bunu bilir və yüksək qiymətləndirir. Biz bunu qardaşlıq rəmzi və eyni zamanda beynəlxalq hüquqa hörmətin əlaməti hesab edirik. Çünki tarixi həqiqət və tarixi ədalət bizim tərəfimizdədir. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir və beynəlxalq ictimaiyyət tərəfindən də belə tanınır. Ərazi bütövlüyümüzün bərpası və Vətən müharibəsində Qələbəmiz, əlbəttə, dövlətimizin gücünü, Azərbaycan xalqının iradəsini və sözümüzlə əməlimizin bir olduğunu nümayiş etdirdi. Beləliklə, müharibənin başa çatdırılması və işğal edilmiş ərazilərimizin azad olunması ilə bağlı Azərbaycan xalqı qarşısında verilən vədlər və götürülmüş öhdəliklər yerinə yetirilmişdir.



Hazırda biz Azərbaycanın inkişafının yeni mərhələsinin astanasındayıq. Ərazilərimizin bərpası və yenidən qurulması mərhələsindəyik. İşğal edilmiş ərazilərin dağıdılması ilə bağlı videomateriallar təqdim edilib. Bizim bütün şəhər və kəndlərimiz viran edilib, tarixi abidələrimiz dağıdılıb, mədəni abidələrimiz yerlə-yeksan olunub. Məscidlərimiz ya dağıdılıb, ya da onlar heyvan saxlanılması üçün istifadə edilib. Bununla onlar təkcə azərbaycanlıların deyil, bütün dünya müsəlmanlarının hisslərini təhqir ediblər. Həmin şəkilləri və videomaterialları görən dünya müsəlmanları bir daha anlayır ki, uzun illər ərzində biz hansı bəla ilə üz-üzə idik və ərazilərimizi, torpaqlarımızı azad edərək tarixi köklərimizə qayıtmaqla biz nəyə nail olmuşuq. Bildiyiniz kimi, bəzi hallarda Ermənistan müsəlman ölkələri ilə əlaqələr yaratmaq və ya münasibətləri möhkəmləndirmək cəhdləri edir. Lakin əminəm ki, həmin videoları görən dünya müsəlmanları öz hökumətlərinə güclü mesaj verəcəklər ki, məscidləri dağıdan, orada donuz saxlayan və islamofobiyanı təşviq edən ölkə ilə hər hansı təmaslardan çəkinsin. Burada siyasi, yaxud digər maraqlar ola bilər, ancaq hesab edirəm ki, bütün dünya müsəlmanların səslərini birləşdirməli, təcavüzkara güclü bir mesaj göndərməlidir ki, onların etdikləri qəbulolunmazdır və müsəlmanlar tərəfindən unudulmayacaqdır. Burada bir daha qardaş əfqan xalqına hər zaman - danışıqlar və işğal dövründə, müharibə zamanı və müharibədən sonra, Qələbəmizi qeyd etdiyimiz vaxtda yanımızda olduğuna, bizi dəstəklədiyinə görə minnətdarlığımı ifadə etmək istəyirəm. Bir daha xoş gəlmisiniz, Azərbaycanda yaxşı vaxt keçirməyinizi arzulayıram. Əminəm ki, burada özünüzü vətəninizdəki kimi hiss edəcəksiniz.

Səfir **Amanullah CEYHUN:** Zati-aliləri cənab Prezident, əvvəlcə mən Sizə minnətdarlığımı bildirmək istəyirəm. Əfqanıstanın Azərbaycanda səfiri kimi fəaliyyət göstərmək mənim üçün böyük şərəfdir. Mən çox xoşbəxtəm ki, Azərbaycana çox özəl bir vaxtda gəlmişəm. Mən Azərbaycana müharibə başa çatandan sonra - noyabrın 13-də gəlmişəm. Yəni Qələbədən üç gün sonra, erməni işğalı bitdikdən, Azərbaycan xalqı öz torpağına qovuşduqdan sonra gəlmişəm. Bu, mənim üçün böyük xoşbəxtlikdir. Çünki Azərbaycan çox önəmli bir tarix yaşayır.

Zati-aliləri cənab Prezident, bir daha qeyd edirəm ki, Azərbaycanda olmaq mənim üçün şərəfdir. Əminik ki, Sizin rəhbərliyiniz və Ali Baş Komandanlığınızla Azərbaycan böyük uğurlara nail olmuş və özünün coğrafi yerləşməsi, regional bağlılıq baxımından vacib ölkəyə çevrilmişdir. Zati-aliniz regional bağlılıqla əlaqədar Prezident Əşrəf Qaninin baxışına dəstək verib. Azərbaycana gəlişim ərəfəsində Prezident mənə təlimat vermişdir ki, onun salamlarını Sizə çatdırım, Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə sülh və əmin-amanlıq arzu edim. Həmçinin Prezidentimiz Azərbaycanın rəhbərliyinizlə əldə etdiyi uğurlar münasibətilə Sizi təbrik etməyimi tapşırıb. Zati-aliləri, Siz də qeyd etdiyiniz kimi, Azərbaycan və Əfqanıstan münasibətləri uzun tarixə malikdir.

## 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanla bağlı maddi yardımın ödənilməsi barədə

### Nazirlər Kabinetinin Sərəncamı

"2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanın ödənilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 14 dekabr tarixli 2343 nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə:

1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın:

1.1. "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanın ödənilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 14 dekabr tarixli 2343 nömrəli Sərəncamının 1-ci hissəsi ilə müəyyən edilmiş qaydada mülki əhalinin əmlakına dəymiş ziyanla bağlı maddi yardımın ödənilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 noyabr tarixli 612s nömrəli Sərəncamı ilə yaradılmış işçi qrupları tərəfindən təqdim edilən siyahılar əsasında hesablanmış ilkin olaraq 9 068 128 (doqquz milyon altmış səkkiz min yüz iyirmi səkkiz) manat (bank xidməti ödənişləri də daxil olmaqla) məbləğində vəsaitin 2020-ci il üçün Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulmuş Ehtiyat Fondunun vəsaiti hesabına maliyyələşdirilməsini təmin etsin;

1.2. bu Sərəncamın 1.1-ci bəndində göstərilən vəsaitin 2 920 500 (iki milyon doqquz yüz iyirmi min beş yüz) manatının Gəncə Şəhər İcra Hakimiyyətinin, 67 000 (altmış yeddi min) manatının Mingəçevir Şəhər İcra Hakimiyyətinin, 1 848 500 (bir milyon səkkiz yüz qırx səkkiz min beş yüz) manatının Ağdam Rayon İcra Hakimiyyətinin, 586 000 (beş yüz səksən altı min) manatının Ağcabədi Rayon İcra Hakimiyyətinin, 233 000 (iki yüz otuz üç min) manatının Bərdə Rayon İcra Hakimiyyətinin, 124 000 (bir yüz iyirmi dörd min) manatının Beyləqan Rayon İcra Hakimiyyətinin, 41 000 (qırx bir min) manatının Cəbrayıl Rayon İcra Hakimiyyətinin, 4 000 (dörd min) manatının Naftalan Rayon İcra Hakimiyyətinin, 2 296 500 (iki milyon iki yüz doxsan altı min beş yüz) manatının Tərtər Rayon İcra Hakimiyyətinin, 494 500 (dörd yüz doxsan dörd min beş yüz) manatının Füzuli Rayon İcra Hakimiyyətinin və 421 500 (dörd yüz iyirmi bir min beş yüz) manatının Goranboy Rayon İcra Hakimiyyətinin müvafiq xəzinə hesabına ödənilməsini təmin etsin.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və aidiyyəti yerli icra hakimiyyəti orqanları mülki əhali üçün hesablanmış maddi yardımların işçi qrupları tərəfindən Dövlət Komissiyasına təqdim edilən siyahılar əsasında 10 (on) gün müddətində yaşayış evlərinin sahiblərinin və ya onların qanuni nümayəndələrinin bank hesablarına (o cümlədən kart hesablarına) ödənilməsini təmin edib, nəticəsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə hesabat təqdim etsinlər.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Bakı şəhəri, 17 dekabr 2020-ci il*

## İşğaldan azad olunmuş Ağdam rayonunda FHN-in yerli strukturu fəaliyyətə başlayıb

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (FHN) işğaldan azad olunan ərazilərimizdə yerli strukturlarının formalaşdırılmasını davam etdirir.

AZƏRTAC nazirliyin saytına istinadla xəbər verir ki, Ağdam rayonunun Qızıl Kəngərli kəndində FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin yanğından mühafizə bölməsi fəaliyyətə başlayıb. Bölmə xidmətin yüksək səviyyədə həyata keçirilməsi üçün müvafiq texnika və avadanlıqla təchiz edilib.



Xatırladaq ki, bundan əvvəl FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin Şuşa, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər şəhərlərində və Xocavənd rayonunun Hadrut qəsəbəsində yerli strukturları fəaliyyətə başlayıb.

## Xocavənd rayonunun ərazisində xidməti postlar qurulub

Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatları nəticəsində işğaldan azad edilən ərazilərimizdə təhlükəsizlik tədbirləri gücləndirilir.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a bildirilib ki, Xocavənd rayonunun ərazisində rayon polis şöbəsinin əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları xidməti fəaliyyətini davam etdirir.

Rayonun ərazisində xidməti postlar qurulub və təhlükəsizliyə tam olaraq nəzarət edilir.



## Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən dövlət komissiyası humanitar öhdəliklərin icrasını davam etdirir

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən dövlət komissiyası humanitar öhdəliklərin icrasını davam etdirir".

Bu fikir Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu rəhbərinin müavini Eldar Səmədovun AZƏRTAC-a məxsusi müsahibəsində yer alıb. Müsahibəni təqdim edirik.




**- Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının açıqladığı məlumata əsasən, 2020-ci il dekabrın 14-də "hamının-hamıya" prinsipi ilə növbəti humanitar proses həyata keçirilib. Proseslə bağlı oxuculara əlavə məlumat verə bilərsinizmi?**

- Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin imzaladıqları 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatdan irəli gələn vəzifələrdən biri əsir və girovların, meyitlərin humanitar məqsədlərlə dəyişdirilməsinin təmin olunmasıdır.

Tərəflər, ilk növbədə, döyüş bölgəsində qalmış hərbçilərin meyitlərinin ərazilərdən götürülməsi prosesinə başlayıblar. Bu istiqamətdə işlər Rusiya Federasiyasının sülhməramlı qüvvələrinin və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) vasitəçiliyi ilə həyata keçirilir. Proses başlayandan bu günədək döyüş bölgəsindən 314 Azərbaycan hərbçisinin, 775 Ermənistan hərbçisinin meyiti çıxarılıb. Hazırda bu proses davam etdirilir.

Digər vacib vəzifə isə əsir və girovların "hamının-hamıya" prinsipi əsasında azad edilməsidir. Dövlət başçısı İlham Əliyevin göstərişi ilə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində 2020-ci il dekabrın 14-də Azərbaycan Respublikasının 14 vətəndaşı erməni əsirliyindən və girovluğundan azad edilərək Bakıya gətirilib. Onlardan 12 nəfəri Vətən müharibəsində müxtəlif səbəblərdən əsir düşmüş, digər 2 nəfər isə 2014-cü ilin iyul ayında Kəlbəcər rayonu ərazisində girov götürülərək qeyri-qanuni həbs edilmiş Dilqəm Əsgərov və Şahbaz Quliyevdir. Azad edilmiş vətəndaşlarımız hazırda dövlətimiz tərəfindən hərtərəfli diqqət və qayğı ilə əhatə edilməklə müayinə və müalicə olunur, sağlamlıqlarını bərpa edirlər.

**- Bu, 2020-ci il sentyabrın 27-dən sonra tərəflər arasında həyata keçirilmiş ilk humanitar proses idi?**

- Xeyr, bu qeyd etdiyiniz tarixdən sonra tərəflər arasında həyata keçirilmiş ilk humanitar proses deyil. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə humanizm prinsiplərindən çıxış edərək birtərəfli qaydada Azərbaycan Respublikası Müdafiə Nazirliyinin iştirakı, ATƏT-in və BQXK-nın vasitəçiliyi ilə dövlət komissiyası cari ilin 29 oktyabr, 2 dekabr, 9 dekabr və 11 dekabr tarixlərində 9 ermənini qarşı tərəfə təhvil verib. Həmin proseslər zamanı Azərbaycan tərəfi humanizm prinsiplərinə hörmətlə yanaşaraq, ilk növbədə, yaşlı insanları qeyd-şərtsiz azad edib, onların öz yaxınlarına qovuşmasını təmin edib.

**- Bütövlükdə sentyabrın 27-dən sonra ümumilikdə neçə erməni azad olunub?**

- Keçirilmiş bütün humanitar proseslərdə bütövlükdə 54 erməni azad edilib. Onlardan 6 nəfəri 2020-ci il sentyabrın 27-dən əvvəl Azərbaycan ərazisində saxlanılmış şəxslərdir. Bundan başqa, Ermənistan silahlı qüvvələrinin geri çəkilərkən döyüş bölgəsində köməksiz vəziyyətdə qoyub getdikləri ağır xəstə olan 2 nəfər yaşlı erməni mülki şəxs Azərbaycan tərəfindən yerləşdirildikləri xəstəxanada aldıqları müalicəyə və həkimlərin hərtərəfli səylərinə baxmayaraq vəfat etdikləri üçün meyitləri beynəlxalq təşkilatların vasitəçiliyi ilə qarşı tərəfə təhvil verilib.

**- Azərbaycan Respublikasının digər humanitar öhdəliklərinin icrası barədə nə demək olar?**

- Azərbaycan Respublikası 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarına hələ müstəqilliyinin ilk illərində, 1993-cü ildə qoşulub, beynəlxalq humanitar hüquq normalarından irəli gələn öhdəliklərə və humanizm prinsiplərinə daim sadiq olub.

Ermənistan Respublikasının hərbi təxribat əməlləri ilə bağlı Azərbaycan Ordusunun əks-hücum əməliyyatına başladığı 2020-ci il sentyabrın 27-dən sonra Azərbaycan hərbçilərinə təslim olmuş Ermənistan hərbçiləri və döyüş bölgəsindən təxliyə olunmuş mülki şəxslər Cenevrə konvensiyalarının tələblərinə əsasən, dərhal internə edilib, saxlanma şəraiti, onlarla davranış, qida, su təminatı və yaralıların müalicə hüquqları tam təmin olunub.

Dövlət Komissiyası əsir düşmüş Ermənistan hərbçiləri və saxlanılan şəxslər barədə məlumatları müntəzəm qaydada BQXK-ya təqdim edib, qurum əməkdaşlarının onlara baş çəkmələrinə hərtərəfli şərait yaradıb. Həmçinin əsirlərin və saxlanılan şəxslərin öz yaxınlarına məktub yazmasına, bəzilərinin video ismarıclar göndərməsinə, o cümlədən telefon əlaqəsi saxlamalarına imkanlar yaradılıb.

**- Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində neçə vətəndaşımız itkin düşmüşdür? Onların sonrakı taleyinin aydınlaşdırılması sahəsində hansı işlər aparılır?**

- Əvvəlcə, xüsusi vurğulamaq lazımdır ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin qurbanı olmuş bütün vətəndaşlarımız, o cümlədən itkin düşmüş şəxslərlə bağlı məsələ daim Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət mərkəzindədir.

Hazırda dövlət komissiyasında Birinci Qarabağ müharibəsinin nəticələrinə görə 3890 Azərbaycan vətəndaşı itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Dövlət komissiyası itkin düşmüş bütün vətəndaşlarımızın axtarışı sahəsində zəruri tədbirləri davam etdirir.

Bu iş həm də aidiyyəti beynəlxalq təşkilatlarla birlikdə həyata keçirilir. BQXK-nın Azərbaycandakı nümayəndəliyi ilə dövlət komissiyası arasında imzalanmış "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı itkin düşmüş şəxslər haqqında Ante Mortem məlumatların toplanması və mərkəzləşdirilmiş şəkildə idarə olunması üzrə" çərçivə sazişinə əsasən, son illərdə bu iş daha intensiv aparılır. Saziş çərçivəsində itkinlərə aid 3600-dən çox sorğu anketi toplanılıb, məlumatlar elektron məlumat bazasına daxil edilib.

Zəruri olan digər vacib iş isə itkin düşənlərin ailələrindən bioloji (DNT) nümunələrin götürülməsi ilə bağlıdır. Son illər ərzində 3 minə yaxın bioloji nümunə toplanaraq müvafiq qaydada sənədləşdirilib.

**- Humanitar proseslər bundan sonra da davam edəcəkmi?**

- Əlbəttə, üçtərəfli bəyanata uyğun olaraq, humanitar proseslər bundan sonra da davam edəcəkdir. Dediyim kimi, döyüş bölgəsində qalmış hər iki tərəfə aid hərbçilərin meyitlərinin ərazilərdən götürülməsi prosesi beynəlxalq vasitəçiliklə davam etdirilir.

Bundan başqa, hazırda Azərbaycan Respublikasının beynəlxalq təşkilatların da qeydiyyata aldığı 3 vətəndaşı Ermənistanda əsir-girovluqda saxlanılır. Azərbaycan həmin vətəndaşlarının da azad edilərək qaytarılmasını Ermənistandan tələb edir.

**- Sonda bir sual da vermək istərdik. Sosial şəbəkələrdə yayılan videolarda bəzi azərbaycanlı hərbçilərin əsir götürülərkən müxtəlif təzyiqlərə, təhqirlərə və işgəncələrə məruz qalmaları əks olunur. Sizcə buna hansısa hüquqi qiymət verilməlidirmi?**

- Vətən müharibəsi zamanı Ermənistan beynəlxalq humanitar hüquq normalarının, insan hüquqlarının, həmçinin özünün də qoşulduğu Cenevrə konvensiyalarının öhdəliklərinə məhəl qoymayaraq Birinci Qarabağ müharibəsində olduğu kimi, azərbaycanlı əsirləri beynəlxalq təşkilatlardan gizlətmək yolunu tuturdu, onlar haqqında vaxtında məlumat vermirdi, həyatlarına təhlükəli qaydada qeyri-insani rəftar etməkdən belə çəkinmirdi. Bununla bağlı erməni hərbçilərinin özlərinin qeydə aldıqları təkzibolunmaz videomateriallar və fotolar da mövcuddur.

Artıq qeyd etdiyimiz kimi, 14 vətəndaşımız əsirlik və girovluqdan azad olunaraq Vətənə gətirilib. Əlbəttə ki, qanunvericiliklə müəyyən olunmuş prosedur qaydalara əsasən həmin şəxslərin sorğusu keçirilir, onların iştirakı ilə əhəmiyyət kəsb edən hallara dair ibtidai araşdırma hərəkətləri icra edilir, zəruri ekspertizalar aparılır. Bu tədbirlər yekunlaşdırıldıqdan sonra müvafiq qanuni qərarlar qəbul olunacaqdır.

# 44 GÜNDƏ DƏYİŞDİRİLƏN REALLIQLAR




*Əvvəli 1-ci səh.*

*Ən əsası, Müzəffər Ali Baş Komandan İlham Əliyev təkcə BMT-yə və ATƏT-ə yox, bütün dünyaya əyani şəkildə sübut etdi ki, əslində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hərbi yolla, sonrakı mərhələdə siyasi vasitələrlə, bütövlükdə isə, hərbi-siyasi yolla həll olunmalıdır!*

❖ ❖ ❖

**27 sentyabr 2020-ci ildə başlayan və 44 gün davam edən hərbi əməliyyatlar dövründə cənab İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünya ictimai fikrində yaranmış bütün stereotipləri və rəyləri alt-üst, təsəvvürləri isə darmadağın etdi!**

**27 illik erməni işğalına birdəfəlik son qoydu!**

*Qüdrətli Azərbaycan Ordusunun məğrur sərkərdəsi olmaqla mövcud reallıqları tamamilə dəyişdi!*

*Həm də bu 44 gün ərzində yeni reallıqlar, hamının hesablaşmaq məcburiyyətində olduğu reallıqları yaratdı!*

Müzəffər Ali Baş Komandan İlham Əliyev ən əvvəl Ermənistan haqqında yaradılmış miflərin üzərindən çalın-çarpaz xətt çəkdi, onun boşluğunu və mənasızlığını əməldə sübut etdi:

BU MİFLƏR HANSILAR İDİ:

* Ermənistan qalib tərəfdir, onun güclü, məğlubedilməz ordusu var, Azərbaycan onunla hesablaşmalıdır;
* Ermənistan işğal etdiyi ərazilərdə keçilməz "Ohanyan xətti", alınmaz istehkamlar və bunkerlər, güclü atəş nöqtələri yaradıb;
* Azərbaycan yenidən müharibəyə başlasa, yeni ərazilər itirəcəkdir;
* Dağlıq Qarabağ Muxtar Vilayəti artıq on illərdir müstəqil dövlət kimi yaşayır, "qarabağ xalqı" buna alışıb, daha Azərbaycanın tərkibində qala bilməz;
* Azərbaycan ərazi güzəştlərinə hazır olmalıdır, xüsusən Şuşanın, Laçın və Kəlbəcərin qaytarılması barədə düşünməməlidir;
* Azərbaycan "hərbi ritorikadan" əl çəkməli, yalnız "sülh danışıqları" barədə düşünməlidir;
* Ermənistan xalqı qədim və mədəni xalqdır, onu incitmək, xətrinə dəymək olmaz!

**44 günlük hərbi əməliyyatlar zamanı ortaya yeni strategiya və taktika qoyan, XXI əsrin yeni müharibə nümunəsini göstərən, ən yeni silahlarını nümayiş etdirən İlham Əliyev ordusu hər şeyin tam dəyişdiyini əyani şəkildə, döyüş meydanında hamıya göstərdi:**

* Ermənistan Azərbaycan qarşısında diz çökən, ordusu məhv edilən, Azərbaycanla hesablaşmağa məcbur olan dövlətdir;
* Heç bir səngər, müdafiə istehkamları, bunkerlər və atəş nöqtələri Azərbaycan Ordusu qarşısında tab gətirə biməz, daha ermənilərin tərifli, "alınmaz" müdafiə xətləri yoxdur!
* Ermənistanın təxribatlarına cavab verən Azərbaycan nəinki yeni ərazilər itirmədi, əksinə, işğal altındakı bütün əraziləri azad edərək ermənilərə əsrlərboyu unutmayacaqları dərs verdi!
* İlham Əliyev dediyinin üstündə duraraq qalib Sərkərdə kimi bəyan etdi ki, nəinki Dağlıq Qarabağ Muxtar Vilayətinin müstəqilliyindən danışmaq, ümumiyyətlə, status məsələsini yada salmaq, hansısa statusdan danışmaq mənasızdır!
* Şuşanı dünya hərb tarixinə düşəcək əməliyyatla çox qısa zamanda alan, Kəlbəcər və Laçını bir güllə atılmadan geri qaytaran Azərbaycan nəinki heç kəsə heç nəyi güzəştə getmədi, həm də Naxçıvana quru yol açılmasına nail oldu!
* Hərbi əməliyyatların gedişini izləyənlər, Azərbaycan Ordusunun yeni silahlarla erməni ordusuna toy tutduğunu mavi ekranlar vasitəsilə görənlər Azərbaycanın heç kəsi hədələmədiyinin, öz ordusu və müharibə başlayacağı təqdirdə nəyə nail olacaqları barədə həqiqətləri söylədiyinə əmin oldular!
* İşğaldan azad edilmiş rayonlardakı dağıntıları, Laçın və Kəlbəcərdən çıxarkən ermənilərin evləri yandırmalarını, meşələri qırmalarını, ev hevanlarını güllələmələrini görənlər anladılar ki, erməni xalqı qədim deyil, mədəni deyil, məzlum və zavallı deyil, vəhşidir, barbardır, quldur və qaniçəndir, faşist Njdeyə heykəl qoymağa layiq xalqdır!

❖ ❖ ❖

**Bəs İlham Əliyev yaratdığı və bütün dünyanın şahid olduğu yeniliklər, yeni reallıqlar hansılardır:**

* Müharibəni Ermənistan başladı, dərsini aldı, hərbi əməliyyatların dayandırılması üçün dünyada yalvarmadığı, dabanını yalamadığı dövlət və qurum başçısı qoymadı, Azərbaycan qarşısında diz çökdü, Paşinyan "7 şərti"ni zibil qutusuna ataraq İlham Əliyevin bütün şərtləri və tələbləri ilə razılaşdı!
* Qalib dövlət, qalib ordu, qalib xalq Azərbaycandır, Ermənistanın keçmiş prezidentləri, indiki baş naziri alçaldılan, rəzil duruma salınan, xalqını dilənçi, acınacaqlı günə salan, özgə torpaqlarına görə genefondunu məhv edən faşist xislətlilərdir!
* Azərbaycan Ordusunun dünyaya nümunə olan hərbi əməliyyatları dünya ölkələri tərəfindən maraqla öyrənilir, həm də yüksək peşəkarlığa, əhvali-ruhiyyəyə, döyüş qabiliyyətinə malikdir, Ermənistan qisasçılıq fikrindən vaz keçməlidir, Türkiyə və Azərbaycanla dil tapıb əməkdaşlıq qurmağa çalışmalıdır, əks halda bu dövlətin və onun əhalisinin gələcəyi yoxdur!
* Ermənistan uzun illər boyu Azərbaycan ərazisində törətdiyi dağıntılara, vəhşiliyə, qarətçiliyə, talançılığa görə cavab verməli, təzminat ödəməlidir!
* Azərbaycan ərazisində yaşamaq istəyən erməni əhalisi Azərbaycan qanunlarını qəbul etməli, özlərini ölkədə yaşayan digər millətlər kimi aparmalı, terror və separatizm meyillərindən uzaq durmalıdır!
* Azərbaycan daim güclü və məğlubedilməz orduya malik olacaq, dağılmış əraziləri qısa müddətdə bərpa edəcək, köçkün əhalinin geri qayıtmasına lazımi şərait yaradacaq, demokratik prinsiplərin inkişafına daim sadiq qalacaq, xalqın rifahını durmadan yüksəldəcək, müstəqil dövlətin tərəqqisini təmin edəcəkdir!

❖ ❖ ❖

**Otuz il ərzində sürətlə inkişaf edərək qüdrətli dövlətə çevrilən, Ermənistanı məğlubiyyətə uğratmaqla miskin günə salan, qüvvələr nisbətini bütün parametrlər üzrə öz xeyrinə dəyişən Azərbaycanın özü də tamamən dəyişmişdir.**

**Bu dəyişikliyin təşəbbüsçüsü, icraçısı və baş memarı cənab İlham Əliyevdir!**

O, Azərbaycanı gücləndirmiş, siyasi nüfuzunu və hörmətini artırmış, müasir və demokratik dövlətə çevirmişdir.

O, Azərbaycanı transmilli layihələr müəllifinə, dünyanı və Avropanı enerji resursları ilə təmin edən ölkəyə çevirmişdir.

O, Azərbaycanı nəqliyyat və logistika mərkəzinə, qonşularına və dostluq etdiyi dövlətlərə daim fayda gətirən, öz maraqlarını uğurla təmin edən dövlətə çevirmişdir.

O, Azərbaycanı işğalla barışmayan, düşməni məğlub və rüsvay edərək öz ərazilərindən qovan qüdrətli dövlətə çevirmişdir.

**O həm də xalqımızı qalib, məğrur, qürurlu xalq etmişdir!**

**Bu gün isə qalib sərkərdə, zəfər çalmış dövlət başçısı kimi üzünü bütün dünyaya tutaraq özünün yaratdığı yeni reallıqlarla hamını barışmağa və hesablaşmağa dəvət edir:**

*"Mən deyirdim ki, bizim ərazi bütövlüyümüz bərpa edilməlidir. Deyirdim ki, müharibə variantı heç vaxt istisna olunmur. Nəinki deyirdim, bütün bu illər ərzində bütün gücümüzü səfərbər edib ölkəmizi gücləndirirdik, güc toplayırdıq - həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm iqtisadi məsələlərin həllində, ölkəmizdə həmrəyliyin və birliyin möhkəmlənməsində, ordu quruculuğunda güc toplayırdıq. Bu gücü dəmir yumruq formasına gətirdik, düşmənin belini qırdıq və bu gün biz yeni reallıq yaratdıq. Əgər hətta bir il bundan əvvəl bəziləri bizə deyirdilərsə ki, siz mövcud olan reallıqla barışın, bu gün mən deyirəm, hər kəs mövcud reallıqla barışmalıdır".*

❖ ❖ ❖

"Biz yeni reallıq yaratdıq, qələbə çaldıq, düşmənin başını əzərək, düşməni torpaqlarımızdan qovaraq yeni reallıq yaratdıq. Hər kəs bu reallıqla barışacaq, məcbur olub barışacaq, necə ki, Ermənistan barışdı".

**Zəfərin mübarək, Azərbaycan!**

**Yeni reallıqların mübarək, Azərbaycan!**

**Ərazi bütövlüyün mübarək, Azərbaycan!**

**Qarabağ bizimdir!**

**Qarabağ Azərbaycandır!**

**Bəxtiyar SADIQOV**

# *Dünya Bankı:* Azərbaycan dünyanın ən islahatçı 10 ölkəsindən biridir

## "Doing Business 2020" hesabatında Azərbaycanın mövqeyi yaxşılaşaraq 191 ölkə arasında 28-ə yüksəlib

*Əvvəli 1-ci səh.*

Bankın 2020-ci il 16 dekabr tarixli press-relizində qeyd edilir ki, Dünya Bankının Daxili Audit strukturları tərəfindən 2016-cı, 2017-ci, 2018-ci, 2019-cu və 2020-ci illər üzrə məlumatların müfəssəl diaqnostikası aparılıb, ölkələrin reytinqlərinin bu dəyişikliklərin hesabatın metodologiyaları ilə uyğunluğu bir daha nəzərdən keçirilib və nəticədə ölkələrin göstəriciləri ilə bağlı məlumatlar yenilənib.

Müvafiq araşdırmalar nəticəsində Azərbaycanda 3 istiqamətdə aparılmış islahatların ("elektrik təchizatı şəbəkələrinə qoşulma, "müqavilələrin icrası", "sərhəddə ticarət" indikatorları üzrə) "Doing Business 2020" hesabatında lazımınca qiymətləndirilmədiyi və daha az balla qiymətləndirildiyi məlum olub.

Qeyd edək ki, müvafiq diaqnostik qiymətləndirmə 4 ölkəni - Azərbaycan, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Çini əhatə edib.

Müvafiq düzəlişlərdən sonra "Doing Business 2020" hesabatında Azərbaycanın əldə etdiyi bal 76,7 baldan 78,5 bala qədər artırılıb. Bununla da, ölkənin qlobal reytinq sıralamasında mövqeyi 191 ölkə arasında 34-dən 28-ə yüksəlib. Bu mövqe irəliləməsi nəticəsində Azərbaycan Dünya Bankı tərəfindən yenidən "dünyanın ən islahatçı 10 ölkəsindən biri" kimi qiymətləndirilib.

Xatırladaq ki, "Doing Business 2019" hesabatında da Azərbaycan "dünyanın ən islahatçı 10 ölkəsindən biri" kimi qiymətləndirilmişdi. Aparılmış müstəqil audit yoxlamalarının nəticəsi olaraq, Azərbaycanın reytinqinin 3 göstərici üzrə yenilənməsi haqda ətraflı məlumat press-relizə əlavədə qeyd edilib.

Azərbaycanın Dünya Bankı ilə sıx əməkdaşlığının 28 illik tarixi var. Dünyanın mühüm inkişaf institutu olan Dünya Bankı ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlara daim dəstək verib.

"Doing Business" hesabatında qeydə alınmış məqamlarla bağlı müstəqil araşdırma Dünya Bankının yüksək peşəkarlığını göstərməklə yanaşı, Azərbaycanın Dünya Bankı, istərsə də digər tərəfdaşları ilə münasibətlərində dürüstlüyün ən mühüm dəyər olduğunu bir daha sübut edib.

### Azərbaycanın "Doing Business" hesabatındakı reytinqinin 3 göstərici üzrə yenilənməsi haqda ətraflı məlumat

*Elektrik təchizatı şəbəkələrinə qoşulma indikatoru üzrə*

Bu indikator vasitəsilə elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə ərizələr, elektrik enerjisi müəssisələri ilə müqavilələr, elektrik paylayıcı şirkətlər və digər agentliklər tərəfindən bütün zəruri yoxlamalar və icazələr, habelə xarici və yekun qoşulma işləri və sair üzrə islahatların aparılması ölçülür. Müvafiq istiqamətdə coğrafi informasiya sisteminin kommunal sistemdə tətbiqi islahatı sahəvi yoxlamaların aparılması zərurətini aradan qaldırıb və müvafiq sənədləşmələrin aparılması müddətinin azalmasına səbəb olub. Xüsusilə texniki şərtlər üçün sahəvi müayinələrin aparılması proseduru ləğv edilib və texniki şərtlərin qəbul edilməsinə olan müddət azaldılıb. Beləliklə, hesabatda texniki şərtlərin və elektrik sistemlərinə qoşulmanın bir paketdə cəmlənməsi nəticəsində elektrikə qoşulma üzrə prosedurların sayının 5-ə, müddətin isə 32 günə kimi azaldığı öz əksini tapıb.

Qeyd edək ki, müvafiq göstəricilər daha öncə hesabatda, müvafiq olaraq 7 və 41 gün kimi əks olunmuşdu.

*Müqavilələrin icrası indikatoru üzrə*

"Doing Business" hesabatı "Hüquqi proseslərin keyfiyyəti indeksi" vasitəsilə hər bir ölkənin öz məhkəmə sistemində aşağıdakı 4 sahə üzrə yaxşı təcrübələri tətbiq edib-etmədiyini müəyyən edir: məhkəmə strukturu və prosesləri, məhkəmə işinin idarə edilməsi, avtomatlaşdırılmış məhkəmə sistemi və mübahisələrin alternativ qaydada həlli. Müvafiq sub-indikator üzrə aparılmış diaqnostik yoxlamalar nəticəsində Azərbaycanın göstəricisi 6,5 baldan 10,5 bala kimi artırılıb. Bununla da ölkədə məhkəmə proseslərinin təyini, hakimlər və vəkillər üçün elektron menecment sisteminin tətbiqi kimi bir sıra mühüm islahatların aparılması Dünya Bankı tərəfindən təsdiq olunub.

*Sərhəddə ticarət indikatoru üzrə*

"Doing Business" hesabatı ixrac və idxal olunan məhsulların daşınma prosesi ilə bağlı vaxt və xərcləri qeydə alır, mal partiyasının ümumi idxal və ixrac prosesində 3 prosedur qrupu (sənədlərlə bağlı tələblərə əməletmə, sərhəddə tələblərə əməletmə və yüklərin ölkədaxili daşınması) ilə bağlı vaxt və xərcləri qiymətləndirir. Sərhəddə ticarətin asanlığı baxımından ölkələrin reytinqi onların sərhəddə ticarət indikatoru üzrə ballarının sıralanması əsasında müəyyən edilir. Müvafiq indikator üzrə audit qrupu tərəfindən aparılmış araşdırmalar nəticəsində "ixraca sərf olunan müddət: sərhəd prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 12, "idxala sərf olunan müddət: sərhəd prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 4, "ixraca sərf olunan müddət: sənədləşmə prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 28,5, "idxala sərf olunan müddət: sənədləşmə prosedurları (saat)" sub-indikatoru üzrə müddətin 26 saat, "ixraca sərf olunan məbləğ: sənədləşmə prosedurları (ABŞ dolları)" sub-indikatoru üzrə xərcin 150 ABŞ dolları kimi olması təsbit edilib.

Qeyd edək ki, müvafiq sub-indikatorlar üzrə göstəricilər daha öncə hesabatda 17, 14, 33, 33 saat və 250 ABŞ dolları kimi qiymətləndirilmişdi.

Beləliklə, Dünya Bankı tərəfindən aparılmış yeni qiymətləndirmə ölkədə "sərhəddə ticarət" prosedurlarında idxal deklarasiyası, ixrac gömrük sənədləşmələrinin sadələşməsi üzrə mühüm islahatların aparılmasını bir daha təsdiq edib.

### "Doing Business 2020" hesabatında Azərbaycanın mövqeyi üzrə yenilənmiş qiymətləndirmə cədvəli

İndikatorlar:
- daha öncə nəşr olunmuş hesabat üzrə mövqe
- müvafiq düzəlişdən sonra yekun göstərici

*Elektrik təchizatı şəbəkələrinə qoşulma*
- prosedurların sayı 7-dən 5-ə
- müddət (günlər) 41-dən 32-yə

*Müqavilələrin icrası*
- hüquqi proseslərin keyfiyyəti indeksi 8-dən 10,5-ə

*Sərhəddə ticarət*
- ixraca sərf olunan müddət: sərhəd prosedurları (saat) 17-dən 12-yə
- idxala sərf olunan müddət: sərhəd prosedurları (saat) 14-dən 4-ə
- ixraca sərf olunan müddət: sənədləşmə prosedurları (saat) 33-dən 28,5-ə
- idxala sərf olunan müddət: sənədləşmə prosedurları (saat) 33-dən 26-ya
- ixraca sərf olunan məbləğ: sənədləşmə prosedurları (ABŞ dolları) 250-dən 150-yə

Dünya Bankının aidiyyəti daxili nəzarət qurumları ölkələrin hesabatdakı mövqeyinə və işgüzar imicinə xələl gətirmiş bu uyğunsuzluqlara yol vermiş bankın məsul şəxsləri barədə bankın Biznes Etikası qaydalarına uyğun inzibati tədbirlər görəcək.

# Azərbaycanı daha da məğrur edən Qələbə

*Əvvəli 1-ci səh.*

O dövrdə Azərbaycan müharibəni yox, döyüşü uduzmuşdu. 1994-cü ildə neft kontraktlarının imzalanmasından sonra respublikamızda Heydər Əliyevin rəhbərliyi sayəsində müsbətə doğru baş verən dəyişikliklər həm də torpaqlarımızın gələcəkdə hərb yolu ilə azad edilməsi üçün etibarlı bünövrə yaratdı. Heydər Əliyev uzaqgörən siyasətçi, müdrik dövlət xadimi idi. Onun təməlini qoyduğu inkişaf strategiyası yalnız iqtisadi sfera ilə tamamlanmayaraq kompleks xarakter daşıyırdı. Əlbəttə, bəzən qarşıya qoyulan hədəflərə çatmaq üçün illər lazım gəlirdi. Eyni zamanda daim nəzərə alınırdı ki, biz kiçik Ermənistanla yox, dünyada özünə yer etmiş erməni təəssübkeşliyi, erməni lobbisi ilə üz-üzəyik.

Bu baxımdan Heydər Əliyev bütün məsələləri zərgər dəqiqliyi ilə ölçüb biçmişdi. Məhz Ulu Öndərin müəyyən etdiyi uğurlu siyasətin nəticəsi olaraq Azərbaycan həm iqtisadi sferada yüksəliş yoluna qədəm qoydu, həm beynəlxalq arenada öz mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirdi. Bu zaman Ermənistanın işğal siyasətinin beynəlxalq səviyyədə ifşası ilə bağlı uğurlara imza atıldı.

### Torpaqlarımızın azad ediləcəyi günü yaxınlaşdıran yüksəliş

Ötən 17 ildə Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın nail olduğu uğurlar çoxşaxəlidir. Bu sırada Xəzərdən hasil olunan neft və qazın dünya bazarlarına çıxarılması və Azərbaycanın enerji təhlükəsizliyi məsələlərində önəmli mövqe qazanması, iqtisadiyyatmızın 3 dəfə böyüməsi, valyuta ehtiyatlarımızın dəfələrlə artması, Bakının beynəlxalq tədbirlərin keçirilməsi mərkəzi kimi tanınması, o cümlədən ölkəmizin beynəlxalq nəqliyyat qovşağına çevrilməsi, kosmik kluba üzv olması kimi məsələlər xüsusilə qeyd olunmalıdır. Bütün bunlar Azərbaycanın beynəlxalq birlikdəki yerini daha da möhkəmləndirməklə yanaşı, respublikamızın məruz qaldığı təcavüzün dünya ictimaiyyəti tərəfindən qəbul olunmasında, Ermənistanın işğal siyasətinin ifşasında böyük rol oynadı. Ən əsası isə, əldə olunan hər bir uğurun və yüksəlişin nəticə etibarilə torpaqlarımızın işğaldan azad ediləcəyi günü yaxınlaşdırdığı göz önündə idi.

Qeyd edək ki, hələ Azərbaycanın zəif olduğu dövrlərdə danışıqlar prosesi zamanı Ermənistan Azərbaycana öz şərtlərini diktə edə bilməmişdi. Bu baxımdan Azərbaycanın inkişafından və güclənməsindən sonra istənilən yolla öz torpaqlarını azad edəcəyi qaçılmaz idi. Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdi ki, sülh danışıqları nəticəsiz qalacağı təqdirdə Azərbaycan güc yolu ilə torpaqlarını işğaldan azad edəcək. Dekabrın 10-da keçirilən Zəfər paradında bu barədə danışan İlham Əliyev deyib: "Biz bu illər ərzində güc toplayırdıq, həm siyasi müstəvidə, beynəlxalq təşkilatlar çərçivəsində, həm də ölkə daxilində iqtisadiyyatımızı gücləndirirdik, biz ordumuzu gücləndirirdik. Bunun nəticəsində Azərbaycan son illər ərzində çox uğurlu inkişaf yolu keçmişdir və ildən-ilə bizim üstünlüyümüz özünü daha qabarıq şəkildə büruzə verirdi. Ermənistan bizimlə rəqabət apara bilmədi. Mən son 17 il ərzində dəfələrlə demişdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan işğalçı qüvvələrini çıxarmasa, biz bu məsələni hərbi yollarla həll edəcəyik. Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs "Qurani-kərim"ə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi".

### Tarix yazan Azərbaycan Ordusu

Bu illər ərzində böyük inkişaf yolu keçən Azərbaycan ordu quruculuğunu da xüsusi nəzarətdə saxladı. Xatırladaq ki, respublikamızın artan gəlirlərinə uyğun olaraq illər öncədən dövlət büdcəsindən ayrılan müdafiə xərcləri də əhəmiyyətli dərəcədə artıb. Ötən illərdə Azərbaycan Silahlı Qüvvələrinin tərkibindəki bütün qoşunlarda əsaslı islahatlar və quruculuq işləri həyata keçirilib. Ən mühümü odur ki, ordumuzun arsenalı tamamilə yenilənib, ən müasir hərbi texnikalar silahlanmaya qəbul edilib və nəticə etibarilə müasir döyüş imkanlarının aparılması tam təmin edilib.

Bütün bunların praktik nəticəsini isə xalqımız 44 gün davam edən Vətən savaşında gördü. Sentyabrın 27-dən başlanan əks-hücum əməliyyatları zamanı ordumuz olduqca mükəmməl taktika ilə müxtəlif istiqamətlərdə cəbhəni yararaq işğalçı ordunu darmadağın etməyə başladı. Ermənistanın keçilməz hesab etdiyi müdafiə xətləri ilk həmlədə ələ keçirildi. Cəbhənin elə bir istiqaməti olmadı ki, əsgərlərimiz mövqelərindən geri çəkilsinlər. Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonları, o cümlədən Xocavənd, Xocalı, Laçın və Tərtər rayonlarının yaşayış məskənləri döyüş yolu ilə azad olundu. Azərbaycan Ordusunun bu zaman həyata keçirdiyi əməliyyatlar müasir döyüşlərin aparılmasında yeni təcrübə formalaşdırdı. Hansı ki, ən güclü ordulara malik dövlətlər belə bu təcrübə ilə yaxından maraqlanırlar.

Şuşanın azad edilməsi isə Azərbaycan Ordusunun yazdığı əsl qəhrəmanlıq səhifəsi oldu. Əsgərlərimiz çətin relyefi olan bu şəhəri qayalardan dırmaşaraq, yüngül atıcı silahlarla döyüşərək azad etdilər. Şuşanın azad edilməsi Azərbaycan əsgərinin vətənpərvərliyinin, ən ekstremal şəraitdə belə vuruşaraq qalib gəlmək əzminin nümayişi oldu.

Azərbaycan bu müharibədə qarşıya qoyduğu məqsədlərə tam nail oldu. Məğlub edilən Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur edildi. Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, Ağdam, Kəlbəcər, Laçın, Şuşa işğaldan azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə ordumuzun qazandığı bu qələbə xalqımızı daha da böyütdü, Azərbaycanı məğrur etdi.

Azərbaycan illər öncədən regionda lider, dünyada söz sahibi idi. İlham Əliyevin Ermənistanı əzən dəmir yumruğu isə ölkəmizin beynəlxalq aləmdə imicini, yerini və mövqeyini daha da möhkəmləndirdi. İndi dünya ictimaiyyəti Azərbaycana daha ehtiramla yanaşır. Çünki qaliblər həmişə yüksək ehtirama layiqdirlər.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Azərbaycanın sədrliyi ilə Enerji Xartiyası Konfransının 31-ci iclası keçirilib

Dekabrın 16-17-də Azərbaycanın sədrliyi ilə videokonfrans formatında Enerji Xartiyası Konfransının 31-ci iclası keçirilib.




Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, 2 gün davam edən tədbirdə 30-dan çox ölkə və bir sıra beynəlxalq qurumlardan olan 100-dək nümayəndə iştirak edib. Tədbirin birinci günündə təşkilatın prosedur məsələləri nəzərdən keçirilib, ikinci gün isə "Hər kəs üçün enerji səmərəliliyi: innovasiyalar və investisiyalar" mövzusunda nazirlərin iclası keçirilib. İclasda enerji keçidini təşviq edən yeniliklər, dayanıqlı enerji texnologiyaları, innovasiyalar, enerji investisiyaları ilə bağlı yenilikləri dəstəkləmək və maliyyələşdirmək üçün səmərəli dövlət-özəl birgə investisiya mexanizmlərinin yaradılması və tənzimlənməsi, innovativ enerji fondlarının yaradılması, enerji səmərəliliyində dövlət satınalmalarının rolunun artırılması, yeniliklərə dövlət dəstəyinin verilməsi üçün milli təsisatların yaradılması məsələlərinə toxunulub.

İclasa sədrlik edən energetika naziri Pərviz Şahbazov bildirib ki, Azərbaycan dünyada öz enerji ehtiyacını tam şəkildə təmin edən azsaylı ölkələrdəndir və dünyada vacib enerji ixracatçısı kimi qəbul olunur: "Hazırda Azərbaycan həm regional, həm də qlobal səviyyədə enerji təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini verir. Ölkəmizin 44 günlük müharibədən sonra qazandığı tarixi qələbə isə enerji infrastrukturuna təhdidlərin qarşısını birdəfəlik alıb".

Eyni zamanda, nazir beynəlxalq səviyyədə enerji səmərəliliyi sahəsində meyillər, çağırışlar və bu çağırışların qarşılanmasında investisiya və innovasiyaların rolu barədə fikirlərini bildirib, enerji resurslarından səmərəli istifadənin Azərbaycan üçün də aktual olduğunu qeyd edib. Deyib ki, ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadə və enerji səmərəliliyi ilə bağlı hədəflər müəyyən edilib, ətraf mühitə atılan istixana qazlarının 2030-cu ilə qədər 35 faiz azaldılması, elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılması hədəf seçilib. Nazir bu istiqamətdə ölkəmizdə həyata keçirilən tədbirlər haqqında məlumat verib, Beynəlxalq Enerji Xartiyasının dəstəyi ilə "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" yeni qanun layihəsinin hazırlandığını diqqətə çatdırıb, müvafiq sahədə fəaliyyət planının və digər ikinci dərəcəli qanunvericilik aktlarının hazırlanması istiqamətində də işlərin aparıldığını bildirib.

Daha sonra Beynəlxalq Enerji Xartiyasının Baş katibi Urban Rusnak çıxış edərək təşkilat tərəfindən müvafiq sahələrdə görülmüş işlər haqqında məlumat verib və Azərbaycana sədrliyi dövründə pandemiya ilə bağlı çətinliklərə baxmayaraq, səmərəli fəaliyyətə və sıx əməkdaşlığa görə təşəkkür edib.

Tədbirdə həmçinin müxtəlif ölkələrin və beynəlxalq təşkilatların yüksəksəviyyəli nümayəndələri çıxış edərək enerji səmərəliliyi sahəsində görülən işlər, əldə edilmiş nəticələr haqqında məlumat veriblər və Enerji Xartiyası Konfransının 31-ci iclasının yüksək səviyyədə təşkili və ümumilikdə sədrlik dövründə məhsuldar fəaliyyətinə görə təşəkkür ediblər.

Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Məhəmməd Sanusi Barkindo çıxış edərək Enerji Xartiyası Konfransına uğurlu sədrliyi münasibətilə Azərbaycanı təbrik edib və ölkəmizin həm OPEC üçün, həm də "OPEC+" "Əməkdaşlıq Bəyannaməsi" üçün vacib tərəfdaş olduğunu bildirib. Baş katib Azərbaycan Prezidenti İlham Əliyevə "Əməkdaşlıq Bəyannaməsi" üzrə konsensusun əldə olunmasında və bu çərçivədə əməkdaşlığa davamlı dəstəyə görə təşəkkürlərini çatdırıb. O bildirib ki, 2016-cı ildə "Əməkdaşlıq Bəyannaməsi" imzalandığı vaxtdan indiyə kimi Azərbaycan bu birliyin ən mühüm üzvlərindən olub. Neft sənayesində sabitliyin təmini üçün OPEC və qeyri-OPEC ölkələrini əməkdaşlığa dəvət edən ilk dünya lideri də məhz Azərbaycan Prezidenti İlham Əliyev olub.

Azərbaycanın bütün dünyada multikulturalizm mərkəzi kimi tanındığını bildirən Baş katib ölkəmizin həm də neft sənayesinin beşiyi kimi məşhur olduğunu vurğulayıb. O həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyan tarixi qələbəmiz münasibətilə təbriklərini çatdırıb. Azərbaycanın COVID-19 pandemiyasına qarşı mübarizədə də nümunəvi ölkə olduğunu və Ümumdünya Səhiyyə Təşkilatına dəstək göstərdiyini vurğulayıb.

İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Hadi Soleimanpour adından çıxış edən təşkilatın Baş katibinin müavini, səfir Huseyin Avni Bicaklı da öz növbəsində tarixi qələbəmiz və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi münasibətilə təbriklərini çatdırıb. İmzalanmış üçtərəfli bəyanatın regiona sülh və əmin-amanlıq gətirəcəyinə əminliyini ifadə edib. Təmsil etdiyi təşkilatın Azərbaycanın işğaldan azad edilmiş rayonlarında yenidənqurma işlərində dəstək göstərməkdən məmnun olacağını bildirib.

# "Haber Global" telekanalı Kəlbəcərdən xüsusi reportaj yayımlayıb

Türkiyənin "Haber Global" telekanalı Azərbaycanın işğaldan azad olunmuş Kəlbəcər rayonundan xüsusi reportaj yayımlayıb.













AZƏRTAC xəbər verir ki, kanalın Kəlbəcərə ezam olunmuş müxbiri Osman Girgin reportajın əvvəlində xatırladıb ki, Ermənistanın hücumları nəticəsində 1993-cü ildə Kəlbəcərin sakinləri olan azərbaycanlılar şaxtalı havada bu bölgənin cığırları ilə üç gün ərzində ayaqyalın yol gedib, öz torpaqlarında köçkün olublar. Reportajda həmin dəhşətli anları əks etdirən kadrlar da nümayiş etdirilib. Diqqətə çatdırılıb ki, Ermənistan silahlı qüvvələrinin 27 il işğal altında saxladığı bu bölgədə törədilən dağıntıların, yanğınların izləri hər yerdə var.

Kadrlardan aydın görünür ki, qəsbkar ermənilər bölgəni tərk etmək məcburiyyətində qalanda belə yenidən vandalizm aktları törədərək evləri yandırıb, meşələrə, ağaclara qarşı əsl soyqırımı həyata keçiriblər. Hər şey dağıdılıb, məhv edilib. İşğalçılardan sonra burada, sadəcə, divarlar qalıb.

Azərbaycan Ordusunun əsgərlərinin işğaldan azad olunmuş torpaqlarda bir nişanə qoymaq üçün divarlara yazdıqları yazılar da tamaşaçıların diqqətinə çatdırılıb.

Reportajda vurğulanır ki, artıq Kəlbəcərdə üçrəngli Azərbaycan bayrağı dalğalanır. Bölgənin təhlükəsizliyi və bu yerlərdə həyatın qurulması üçün əsaslı işlər görülür.

# İsveçrənin RSI teleradiosunun Ağdamdan və Füzulidən hazırladığı reportajda erməni vəhşiliklərindən bəhs olunur

İsveçrənin italyandilli RSI teleradiosunda "Dağlıq Qarabağa qayıdış" adlı reportaj yayımlanıb.












AZƏRTAC xəbər verir ki, Azərbaycanın işğaldan azad edilmiş Ağdam və Füzuli rayonlarına səfər edən telekanalın əməkdaşı Filippo Çiçu tərəfindən hazırlanmış reportajda dağıdılmış yaşayış məntəqələri nümayiş olunur. Jurnalist Ağdam və Füzuli şəhərlərinin "ruhlar məkanı"na çevrildiyini diqqətə çatdırır.

Reportajda 30 il bundan əvvəl bu ərazilərdən didərgin salınmış azərbaycanlıların tədricən öz torpaqlarına qayıdışından bəhs olunur. Həmçinin sentyabr ayından noyabr ayınadək davam edən 44 günlük müharibədən söhbət açılır.

Reportajda ötən əsrin 90-cı illərində Ermənistanın Qarabağa nəzarəti ələ keçirərək əhalisi azərbaycanlılardan ibarət olan şəhər və kəndlərin sakinlərini qovduğu və həmin ərazilərdə hərbi postlar qurduğu bildirilir. Qeyd edilir ki, 30 illik işğal zamanı "ruhlar məkanı"na çevrilmiş bu ərazilərdə tərk edilmiş və dağıdılmış evlərin arasında özünə mövqe seçən erməni hərbçiləri burada müdafiə istehkamları qurublar. 1990-cı illərdən bəri heç də sakitləşməyən münaqişə bu ilin sentyabr ayında yenidən alovlanıb və Azərbaycan işğal altındakı ərazilərini azad edib.

Diqqətə çatdırılır ki, ötən əsrin 90-cı illərində qovulmuş azərbaycanlı köçkünlər təxminən 30 ildən sonra öz torpaqlarına geri qayıda bilərlər. Lakin burada onları dağıntılar və minalanmış ərazilər gözləyir. Həmin minalanmış ərazilər isə hazırda Azərbaycan əsgərləri tərəfindən təmizlənir.

# Şuşanın alternativ içməli su təchizatı təmin edilib

Prezident İlham Əliyevin xüsusi tapşırığına əsasən, "Azərsu" ASC işğaldan azad olunmuş Şuşa şəhərini dayanıqlı içməli su ilə təmin etmək üçün təxirəsalınmaz tədbirləri davam etdirir. Kiçik Kirs mənbəyindən sonra Zarıslı mənbəyindən suyun verilməsi ilə Şuşa şəhərinin alternativ və dayanıqlı içməli su təchizatı təmin olunub.







ASC-dən AZƏRTAC-a bildirilib ki, Şuşa şəhərinin içməli su təchizatının dayanıqlılığını təmin etmək və Kiçik Kirs mənbəyindən asılılığı aradan qaldırmaq üçün Zarıslı mənbəyi və Zarıslı-Şuşa magistral kəmərində aparılan təmir-bərpa işləri yekunlaşıb və şəhərə yeni mənbədən suyun verilməsi təmin olunub. Müdafiə Nazirliyinin müvafiq bölmələri ilə birgə təhlükəsizlik tədbirləri görülməklə Şuşa şəhərindən 11 kilometr məsafədə yerləşən Zarıslı mənbəyi və Laçın-Şuşa avtomobil yolunun kənarı ilə çəkilmiş magistral su xətti tam təftiş edilib, kəmərin qəzalı hissələri müəyyənləşdirilib.

"Azərsu" ASC-nin Bakıdan və Cəbrayıl sukanal sahəsindən ezam olunmuş mühəndis-texniki heyəti tərəfindən qısa müddətdə qəzalar aradan qaldırılıb, kəmərin sıradan çıxmış hissələri dəyişdirilib. Eyni zamanda mənbədə olan 3 sugötürücü qurğudan ikisində təmir-bərpa işləri başa çatdırılaraq mənbənin məhsuldarlığı artırılıb. Kəmərlə nəql olunan içməli suyun mərkəzi anbara və buradan da şəhər şəbəkəsinə ötürülməsi təmin edilib. Anbarda generator quraşdırılıb, hipoxlorid məhlulundan istifadə olunmaqla zərərsizləşdirici qurğu istismara verilib. Şəhərin anbardan yüksəklikdə yerləşən ərazilərinin su təminatının aparılması məqsədilə anbarda yeni nasos quraşdırılıb. Eyni zamanda zərurət yarandıqda suyun maşınlarla daşınması üçün sudoldurma məntəqəsi yaradılıb.

Hazırda Şuşa şəhərinin daxili paylayıcı su şəbəkəsinin sıradan çıxmış və qəzalı hissələrinin təmiri davam etdirilir, su almayan bina və tikililərin su təchizatı bərpa olunur.

Qeyd edək ki, Şuşa şəhəri işğaldan azad olunduqdan sonra şəhərə içməli suyun verilməsi tam dayanmışdı. Düşmən tərəf şəhəri tərk edərkən magistral su kəmərini də sıradan çıxarmışdı. Yaranmış içməli su probleminin həlli məqsədilə ilkin olaraq Daşaltı kəndinin içməli su təchizatı bərpa edilib və Şuşa şəhərini müvəqqəti olaraq maşınlarla su ilə təmin etmək üçün Daşaltıda sudoldurucu məntəqə yaradılıb. Sonra Kiçik Kirs mənbəyində və uzunluğu 9,4 kilometr olan Kiçik Kirs-Şuşa magistral su kəmərinin qəzalı hissələrində bərpa işləri aparılaraq noyabrın 25-də Şuşa şəhərinə suyun verilməsi təmin edilib.

Mənbələrdə, magistral kəmərlərdə və şəhərdaxili paylayıcı şəbəkələrdə yaranan problemlərin operativ həlli məqsədilə "Azərsu" ASC-nin mühəndis-texniki heyəti və qəza briqadası tərəfindən Şuşa şəhərində fasiləsiz xidmət təşkil olunub.

# "Alianza Metropolitan News" qəzeti azərbaycanlı köçkünlərin öz doğma yurdlarına qayıtmaq arzularından yazır

Kaliforniyada dərc olunan ispandilli "Alianza Metropolitan News" qəzeti İspaniyanın EFE agentliyinə istinadla "Qarabağ köçkünləri öz yurdlarına qayıtmaq istəyirlər" sərlövhəli məqalə yayıb.







AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın işğaldan olunmuş Ağdam və Füzuli rayonları sakinlərinin fikirlərinə yer verilib.

Məqalədə bildirilir ki, rayonun 50 yaşlı sakini, müəllimə Aidə Hüseynova ermənilərin 1993-cü ildə işğal edib xarabalığa çevirdiyi, "ruhlar şəhəri" adlandırılan, yenicə azad edilmiş Ağdam şəhərində "dağıntılar arasında öz dədə-baba yurdunuzu tapa bilərsinizmi" sualına cavab olaraq deyir: "Ağdamı bu halda görəndə məni ağlamaq tutur, qəhər məni boğur, çox pis oluram, baxa bilmirəm". Jurnalist yazır ki, Aidə Hüseynova onunla şəhərdə yeganə salamat qalmış ikiminarəli məscid binasının qarşısında söhbət edib.

Müharibədən öncə 40 min sakini olan şəhərin tamamilə dağıdılıb viran qoyulduğu vurğulanan məqalədə buna görə Ağdamın "Qafqazın Xirosiması" adlandırıldığı diqqətə çatdırılır.

Ağdam sakini fikirlərini davam etdirərək deyir: "Müharibə dəhşətli idi, düşünürdük ki, hamımız burada öləcəyik. Bizim sağ qalmağımız möcüzə oldu, amma ermənilər mənim bütün ailəmi məhv etdilər, xalamın bütün ailəsini girov götürdülər, hazırkı vaxtadək onların aqibətindən bixəbərik".

Ağdamın daha bir sakini, 58 yaşlı Məhəmməd Məmmədov rayonun əvvəlki vəziyyətindən danışır: "Əvvəllər burada tarlalar, fabriklər, üzümlüklər var idi, şərab istehsal olunurdu". Müəllif yazır ki, ermənilər bu şəhəri 1993-cü ilin iyulunda zəbt ediblər, amma heç vaxt burada məskunlaşmayıblar.

Qeyd olunur ki, bu ərazilərdə hazırda minalardan təmizlənmə işləri həyata keçirilir. Hər yerdə yanmış tanklar, partlamamış və ermənilər geri çəkilərkən atıb getdikləri hərbi sursatlar var.

Diqqətə çatdırılır ki, Ağdamdan sonra işğal olunub tamamilə yerlə yeksan edilən digər şəhər Füzuli şəhəridir. Bu şəhərin sakini Əli Həşimoğlu hadisələrin üstündən uzun illər keçsə də, yaddaşından heç nəyin silinmədiyini deyir. Onun balaca nəvəsi bütün Bakı sakinləri kimi "Qarabağ Azərbaycandır" deyə qışqırır.

"Biz ermənilərlə əgər işğalçı fikirlərindən əl çəkərlərsə, birgə yaşaya bilərik, əks halda, bu, mümkün deyil", - deyə Əli Həşimoğlu bildirir.

# Azərbaycanda rəqəmsal inkişaf və innovasiyalar hökumətin siyasi gündəmində prioritetdir

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və "FA International Trade Events" MMC-nin birgə təşkilatçılığı ilə "World Net Summit" adlı beynəlxalq onlayn konfrans baş tutub.







Nazirlikdən AZƏRTAC-a bildirilib ki, tədbirdə dövlət qurumları, özəl sektor, beynəlxalq təşkilatlar, xarici ölkələrdən yüksəksəviyyəli dövlət nümayəndələri, nazirlər, diplomatik korpusun nümayəndələri, habelə dünyanın ilk süni intellektli humanoid robotu "Sofiya", "Hanson Robotiks" şirkətinin yaradıcısı David Hanson, "Baykar Makina" şirkətinin texniki direktoru Səlçuk Bayraktar və digər xarici ekspertlər iştirak ediblər.

Onlayn tədbir iştirakçılarını salamlayan nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsi nəticəsində bölgədə sülhün təmin edildiyini bildirib. Nazir qeyd edib ki, bu, Azərbaycanın işğaldan azad olunan bölgələrinin inkişafı üçün yeni imkanlar yaradır və innovasiyalar sahəsində regional əməkdaşlığı inkişaf etdirir.

R.Quluzadə müasir texnologiyaların günümüzün əsas problemlərindən biri olan koronavirusla mübarizədə mühüm rol oynadığını, rəqəmsal texnologiyaların pandemiyanın iqtisadi və sosial nəticələrinin daha ağır olmasının qarşısını aldığını diqqətə çatdırıb. Pandemiya dövründə bu texnologiyalardan istifadəyə ehtiyacın sürətlə artdığını söyləyən nazir vurğulayıb ki, texnologiyanın gətirdiyi dəyişikliklərə də hazır olmalıyıq: "Ölkəmizdə pandemiya ilə mübarizə və onun təsirini minimuma endirmək üçün etibarlı strategiya qəbul edilib. İnformasiya texnologiyalarının geniş tətbiqi ilə yüksəkkeyfiyyətli və davamlı xidmətlər təqdim etmişik. Azərbaycanda rəqəmsal inkişaf və innovasiyalar hökumətin siyasi gündəmində prioritetdir".

Nazir əlavə edib ki, ölkədə "ağıllı şəhər" həllərinin tətbiqi genişlənir. Bu fəaliyyət açıq hökumət təşəbbüslərindən biridir və 2020-2022-ci illər üçün Açıq Hökumətin Təşviqi üzrə Milli Fəaliyyət Planında öz əksini tapıb.

R.Quluzadə çıxışının sonunda qeyd edib ki, rəqəmsal texnologiyalar, pandemiyadan sonrakı dövrdə daha etibarlı, əlaqələndirilmiş və dayanıqlı dünyanın yenidən qurulmasında mühüm rol oynayacaq. Bunun üçün hökumətlərin yeni strategiyalar və uzunmüddətli proqramlar üzərində işləmələri və fəal əməkdaşlıq etmələrinə ehtiyac var.

Daha sonra "Hanson Robotics" şirkətinin süni intellekt əsasında hazırladığı robot-humanoid "Sofiya" çıxış edib. O, ən böyük onlayn texnologiya tədbiri olan "World Net Summit"in təşkilini yüksək qiymətləndirib. "Sofiya" Azərbaycanın gənc və perspektivli ölkə olduğunu qeyd edərək innovasiya ekosisteminin inkişafına verilən töhfələri müsbət dəyərləndirib.

"Baykar Makina" şirkətinin texniki direktoru və "Bayraktar TB2" pilotsuz uçuş aparatının yaradıcısı Səlçuk Bayraktar çıxışında bir daha Azərbaycanı parlaq qələbəsi münasibətilə təbrik edib. O, startap ekosisteminin, eləcə də hərbi milli sənaye hərəkatının inkişafında dronların əhəmiyyətli rolundan bəhs edib.

COVID-19 pandemiyası səbəbindən onlayn formatda keçirilən konfransda dövlətlərin pandemiya sonrası innovasiya strategiyası, investorların atacağı addımlar, "fintech"lərin bu dövrdə qarşılaşdıqları problemlər və digər bu kimi mövzular üzrə çıxışlar olub. Tədbirdə region dövlətlərinin innovasiya mərkəzlərinin rəsmi şəxsləri tərəfindən startap ekosistemi ilə bağlı son vəziyyət müzakirə edilib.

İki gün davam edəcək "World Net Summit" beynəlxalq konfransı çərçivəsində internet, maliyyə, bankçılıq, texnologiya, nəqliyyat, investisiya, biznes, sığorta, innovasiya və digər əlaqəli sahələri əhatə edən "Monex Summit Caspian", "Global Influencer Day", "Government Address", "AutoTech Conf", "StartUp Academy", "Venture Summit", "Corporate Innovation Forum" kimi beynəlxalq onlayn panelləri təşkil olunacaq (https://worldnetsummit.com/).

Konfransda dünyaca məşhur "Apple" şirkətinin yaradıcılarından olan Stiv Voznyak, "Entrepreneur" jurnalının baş redaktoru Jason Feifer və digər xarici ekspertlərin iştirakı nəzərdə tutulur.

Qeyd edək ki, "World Net Summit" beynəlxalq təşkilatların, dövlət qurumlarının, ictimai təşkilatların nümayəndələri, mikro, kiçik və orta sahibkarlar, investorlar, ekspertlər və startapçıları bir araya gətirən mühüm platformadır.

# Azərbaycan öz mədəniyyəti ilə dünyaya nümunə göstərilən ölkələr arasındadır

Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsini parlaq qələbə ilə başa vurub otuz ildən bəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılan Qarabağı azad etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdə qüdrətiylə rəşadətli ordumuz Azərbaycanın hərb tarixinə şanlı səhifə yazdı.



Qarabağın işğaldan azad edilməsi, dövlətimizin ərazi bütövlüyünün təmin olunması hər bir vətən sevdalısının ürəyini qürurlandırır, hər birimizə xoş duyğular yaşadır. Xalqımızın otuz ildən bəri səbir və təmkinlə, sərkərdəsinə və ordusuna sonsuz inamla məhz bu günü - erməni faşistləri üzərində Qələbə qazanılacağı anı gözləyirdi. İgid oğullarımız qanları və canları bahasına bu qələbəni təmin edib bütöv bir xalqı uzun illərdən bəri davam edən ağır xəcalət yükündən xilas etdilər. Bu müqəddəs savaşda 2783 şəhid verdik. Qəhrəman oğullarımız döyüşlərdə yaralanıb sağlamlıqlarını itirdilər, vətənin fədakar qazilərinə çevrildilər. Dövlət başçısı İlham Əliyevin sərəncamı ilə şəhid ailələrinə, qazilərə yetərli sosial yardımlar təyin edilməsi haqlı olaraq cəmiyyətdə razılıq və minnətdarlıqla qarşılanır.

Vətən müharibəsi artıq bitmiş, düşmən üzərində parlaq qələbə qazanılmışdır. Böyük zəfərin doğurduğu sevinc isə hələ də qəlblərə hakimdir. Heç şübhəsiz, bundan sonra da uzun illər boyu qələbə sevinci, bayram ovqatı yaşayacağıq. Bu möhtəşəm tarixi uğurun baş memarı Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə, şərəfli missiyanın qəhrəman Azərbaycan əsgərinə və hər zaman öz ordusuna etibarlı arxa olan müdrik xalqımıza eşq olsun!

Müharibə bitmiş, yeni dövr başlamışdır. Təbii ki, yeni dövrün vəzifələrini reallıqlar müəyyən edir. Biz mədəniyyət işçiləri olaraq üzərimizə düşən vəzifələrin məsuliyyətini yüksək dəyərləndiririk. Hərbi vətənpərvərlik ruhunun təbliği bizim üçün prioritet olaraq qalır. Müharibə dövrü səngərlərdə əsgərlərin yanında tez-tez olur, orduda döyüş ruhunu qaldırmaq üçün bütün imkanlarımızı səfərbər edirdik. Vaxtaşırı zabit və əsgərlər qarşısında canlı konsertlər təşkil edir, hərbi vətənpərvərlik ruhlu mahnılar səsləndirirdik. Şəhid Xudayar Yusifzadə Bərdə şəhəri, Bülbül adına 1 nömrəli uşaq incəsənət məktəbinin məzunu olub. O, cəbhədə oxuduğu "Vətən yaxşıdır" mahnısı ilə indi bütün ölkədə məşhurdur. Oxuduğu məktəbdə Xudayarın həyatından, şərəfli döyüş yolundan bəhs edən foto-stend yaradılmışdır.

Bərdə Regional Mədəniyyət İdarəsi Mingəçevir və Yevlax şəhərlərini, Bərdə və Tərtər rayonlarını əhatə edir. Respublika Mədəniyyət Nazirliyinin qəbul etdiyi qərarlar, verdiyi tapşırıq və tövsiyələr fəaliyyətimizin əsas istiqamətlərini müəyyən edir. Təbii ki, əsas qayəmiz milli-mədəni irsimizi, mənəvi dəyərlərimizi, musiqimizi qayğı ilə qorumaq və müasir dövrün tələblərinə uyğun formada daha da inkişaf etdirməkdir. Əsrlərin yadigarı olan tarixi mədəni abidələri fəal vətəndaş mövqeyindən qorumaq, mühafizə etmək də fəaliyyətimizin əsas istiqamətləri sırasında yer alan vəzifələrdəndir.

Etiraf etmək lazımdır ki, bir sıra çətinliklərlə müşayiət olunan müasir dövrün özünəməxsus fərqli xüsusiyyətləri var. Bir tərəfdən, Vətən müharibəsinin sərt qaydaları öz yaşam tərzini, fəaliyyət üsullarını diktə edirsə, digər tərəfdən, bütün dünyanı cənginə alan COVID-19 pandemiyası öz ağır şərtlərini irəli sürür. Beləcə, iki cəbhədə döyüşməyə, tapşırılan vəzifəni layiqincə yerinə yetirməyə borcluyuq. Bu məsuliyyət hissi hər zaman bizimlədir.

İdarənin əhatə etdiyi şəhər və rayonlarda çağırışçı gənclərin hərbi xidmətə yolasalma mərasimlərini maraqlı konsert proqramları ilə toya, bayrama çevirmək artıq gözəl ənənəyə çevrilmişdir. Həmin tədbirlərdə hərbi-vətənpərvərlik ruhlu mahnılar ifa edilir, gənclər ordu sıralarına musiqiylə yola salınır.

Qədim dövlətçilik ənənəsi olan Bərdə tarixi abidələri ilə zəngin olan bir ərazidir. Bərdənin tarixi abidələrinə həsr edilmiş videoçarxda ilk olaraq Azərbaycanın memarlıq məktəbinin ən qiymətli nümunələrindən biri olan 1322-ci ildə naxçıvanlı memar Əhməd İbn Əyyub Hafiz tərəfindən tikilmiş Bərdə türbəsi, VI əsrə məxsus dünya əhəmiyyətli arxeoloji abidə olan beş bürclü Torpaq qala haqqında məlumat verilir. Torpaq qala mühafizə xarakteri daşıyıb, şəhəri yadellilərdən qorumuşdur. Yüksək ustalıqla tikilən qala dəfələrlə hücumlara məruz qalsa da, qar, yağış onu yusa da, dağılmamış, bugünə kimi gəlib çatmışdır. 1868-ci il dövrünün tanınmış memarı olan Kərbəlayi Səfixan Qarabaği (qeyd edək ki, 1788-ci ildə Şuşada anadan olan bu məşhur memar 122 il yaşamış, 1910-cu ildə vəfat etmişdir) tərəfindən inşa edilmişdir. İmamzadə türbəməscidi bu gün də ziyarət mərkəzidir. Bərdə şəhəri tarixən Tərtər çayının hər iki sahilində yerləşib. Çay öz yatağını üç dəfə dəyişmişdir. Hazırda çayın yatağında qalıqları qalan körpü tarixdə "çoxgözlü" körpü kimi məşhur olmuşdur.

Yadellilərin hücumlarına məruz qalmasına baxmayaraq, tarixi abidələrimizin bugünümüzə gəlib çatması, təbii ki, qürurvericidir. Bizim yeniyetmə və gənclərimiz nəinki yaşadığı rayonun, şəhərin, eləcə də vətəndaşı olduğu ölkənin tarixini bilməli, tarixi-mədəniyyət abidələrini tanımalı, tanıtmalı və qorumalıdır. "Tariximiz keçmişdən gələcəyə" mövzusunda bütün region üzrə təşkil etdiyimiz onlayn tədbirlər maraqla qarşılanmışdır. Dünənimizdən bugünümüzə işıq salan, mənəviyyat körpüsünə çevrilən qiymətli sənət incilərimizi qoruyub saxlamaq, yaşatmaq hər birimizin vətəndaşlıq borcudur.

Karantin dövrünün qaydalarına uyğun olaraq, "Evdə qal, evdə yarat" çağırışını əsas götürərək fəaliyyətimizi Mədəniyyət Nazirliyinin layihələrinə əsasən qurur, onlayn tədbirlər keçirir, konsertlər veririk. "Evdə qal, musiqidən qalma", "Evdə qal, evdə yarat", "Mənim evim, mənim iş yerim" layihələrini uğurla həyata keçiririk. Eyni zamanda aztəminatlı ailələrə, 65 yaşdan yuxarı ahıl, tənha insanlara sosial yardım göstərməyi davam etdiririk. Nazirlər Kabinetinin müvafiq qərarlarına uyğun olaraq Mədəniyyət Nazirliyinin bu barədə tapşırıq və tövsiyələri əsasında koronavirus infeksiyasının yarada biləcəyi təhlükənin, yoluxma hallarının qarşısının alınması məqsədilə zəruri tədbirlər görürük. Regional idarənin əhatə etdiyi şəhər və rayonlarda yerləşən bütün mədəniyyət müəssisələrində tibbi profilaktik və dezinfeksiya işləri aparılır, mədəniyyət işçiləri tərəfindən maarifləndirici tədbirlər görülür. Region üzrə 309 mədəniyyət müəssisəsində ümumilikdə 1572 dəfə dezinfeksiya işləri aparılmışdır. Bütövlükdə 1643 dəfədən çox sosial yardım göstərilmişdir.

Biz fəxr edirik ki, bu gün Azərbaycan öz mədəniyyəti ilə dünyada nümunə göstərilən ölkələr arasındadır. Dünyanın ən böyük mədəniyyət təşkilatı olan UNESKO ilə sıx əməkdaşlıq edirik. Azərbaycanın mədəni dəyərləri bu qurum vasitəsilə bütün dünyada təmsil olunur. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev vaxtilə deyirdi: "Yüksək mədəniyyətə malik olan xalq həmişə inkişaf edəcək". "Musiqi qədər, incəsənət qədər insanları bir-birinə heç nə bağlamır" deyən Ulu Öndər özü də bəzən oxuyardı. Onun "Alagöz", "Küçələrə su səpmişəm" mahnılarını necə şövqlə oxuduğunu hamımız kövrək duyğularla xatırlayırıq.

***İlyas HACIYEV,***
***Bərdə Regional Mədəniyyət İdarəsinin rəisi***

# Tarixə çevrilən 25 il

Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının (AİJA) yaradılmasından 25 il ötür. Bu 25 ilin hər biri ölkənin idman mediası tarixinin parlaq səhifəsidir desək, yanılmarıq. Nəzərə alsaq ki, müstəqil Azərbaycan Respublikasının cəmi 29 yaşı var, onda 25 rəqəminin də möhtəşəmliyi və heç də kiçik tarix olmadığı görünər.



Təməli 1995-ci ildə əməkdar jurnalist Eldar İsmayılov tərəfindən qoyulan, ölkənin idman mediası əməkdaşlarının milli birliyi missiyasını ləyaqətlə həyata keçirən AİJA ölkə daxilindəki uğurlu fəaliyyəti ilə yanaşı, beynəlxalq əlaqələrini də möhkəm təməllər üzərində qura bilib. AİJA yaranışından bir il sonra, 1996-cı ildə Beynəlxalq İdman Mətbuatı Assosiasiyasına - AİPS-ə müraciət edərək dünya idman və media aləmində yüksək nüfuza malik bu təşkilata müvəqqəti üzv statusu alıb, 1997-ci ilin mayında isə İspaniyanın Oviyedo şəhərində keçirilən 60-cı Ümumdünya Konqresində yekdil səslə AİPS-ə və təşkilatın qitə seksiyası Avropa İdman Mətbuatı İttifaqına (AIPS EUROPE/UEPS) tamhüquqlu üzvlüyü təsdiq edilib.

Həmin vaxtdan bəri AİJA Azərbaycan idmanının və idman mediasının beynəlxalq əlaqələrinin genişləndirilməsi, Avropaya və dünyaya inteqrasiya, müasir idmanın problemlərinin və ən aktual məsələlərinin idman ictimaiyyətinə, idmansevərlərə və peşəkarlara çatdırılması, media əməkdaşlarının peşə ustalıqlarının artırılması istiqamətində məqsədyönlü fəaliyyətini yüksələn xətlə inkişaf etdirir. Bu gün idman mediasının ən nüfuzlu dairələrində AİJA-nın üzvləri və tərəfdaşları bu missiyanı şərəflə yerinə yetirməkdədirlər.

Azərbaycan Milli Olimpiya Komitəsinin dəstəyi ilə AİJA nümayəndə heyəti hər il keçirilən ümumdünya və qitə məclislərində keçirilən AİPS və UEPS konqreslərində ölkəmizin idman mediasını ləyaqətlə təmsil etdi, Bakının möhtəşəm saraylarında yaddaqalan maraqlı tədbirlərə imza atdı, bir sıra möhtəşəm layihələrin həyata keçirilməsinə nail oldu, üzvlərinin və təəssübkeşlərinin boy sırasını bir neçə nəfərdən 500-ə yüksəltdi. Avropa və dünya ölkələrinin tanınmış idman yazarları, həmçinin Beynəlxalq Olimpiya Komitəsi (IOC), Avropa Olimpiya Komitəsi (UOC), Beynəlxalq İdman Federasiyaları Baş Assambleyası (GAİSF), Dünya Antidopinq Komitəsi (WADA), Beynəlxalq Universitet İdmanı Federasiyası (FISU) və digər nüfuzlu təşkilatlarla sıx və qırılmaz əlaqələr qura bildi.

Təsadüfi deyil ki, 2010-cu il aprelin 28-də Türkiyənin turizm cənnəti Antalyada, beşulduzlu "Riksos Premium Hotel"də 50-dək ölkənin mili idman jurnalistləri qurumunu öz ətrafında birləşdirən Avropa İdman Mətbuatı İttifaqının (AIPS EUROPE/UEPS) 32-ci Baş Assambleyasında gizli səsvermə yolu ilə keçirilən seçkilərdə həmin təşkilatın İcraiyyə Komitəsində yaxın dörd il üçün 12 yerə Yunanıstan, Rusiya, Malta, Türkiyə, Böyük Britaniya, Fransa, Almaniya, Avstriya, Serbiya, İrlandiya və Sloveniya nümayəndələri ilə yanaşı ilk dəfə olaraq Azərbaycan təmsilçisi Eldar İsmayılov da yer tuta bildi. Bu sevindirici hadisə, 145 illik Azərbaycan jurnalistikası tarixində beynəlxalq media təşkilatı rəhbərliyinə seçkilərdə ilk qələbəmiz kimi tarixə və yaddaşlarda yaşayacaq.

Milli təşkilatımızın Avropa İdman Mətbuatı İttifaqı rəhbərliyində təmsil olunması ilə əlaqədar 2011-ci ilin beynəlxalq əlaqələr qrafikinin daha çevik və dinamik olacağı gözlənilirdi. Belə də oldu. 2011-ci ildə AİJA-nın nümayəndələri müxtəlif ölkələrdə 9 beynəlxalq tədbirdə uğurla iştirak ediblər.

AİJA prezidentinin təklifi ilə Avropa idman yazarları elitası öncüllərinin - AIPS EUROPE İcraiyyə Komitəsinin Bakıda toplanmasına qərar verilmişdi. Dövlət başçısı İlham Əliyevin bilavasitə diqqəti və tapşırığı ilə Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi tədbirin təşkilinə cəlb olundu. Nəticədə Bakıda yenicə istifadəyə verilmiş "Hilton" hotelində AİJA bu tədbirin yüksək səviyyədə keçirilməsinə nail ola bildi.

Həmin vaxt dövlət başçısı xaricdə işgüzar səfərdə idi, lakin Bakıdakı tədbirimizi diqqətdə saxlamışdı. AİPS prezidenti Canni Merlonun da qatıldığı Avropa İdman Mətbuatı İttifaqı İcraiyyə Komitəsinin üzvləri ölkəmizin Milli Məclisində yüksək səviyyədə qəbul olundular.

2012-ci ilin 12-16 fevralında AİJA-nın prezidenti Eldar İsmayılov, birinci vitse-prezidenti Nərgiz Mahmudzadə, MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, digər fəallarımızdan ibarət geniştərkibli nümayəndə heyəti Avstriyanın İnsbruk şəhərində keçirilən AİPS-in 75-ci konqresinə qatıldı.

Konqresin açılış mərasimində üç dövlətin başçıları - Avstriya prezidenti Hayns Fişer, federal kansler Verner Fayman, İordaniya şahzadəsi Veysəl ibn Hüseyn, Monako knyazı Albert II iştirak etdilər. Konqresdə Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti, AİJA-nın üzvü Çingiz Hüseynzadə və AİJA-nın birinci vitse-prezidenti Nərgiz Mahmudzadə çıxış edərək ölkəmizin 2014-cü ildə AİPS-in 79-cu konqresinin Bakıda keçirilməsi təklifi ilə çıxış etdilər. AİPS-in tarixində ilk dəfə rəsmi dövlət zəmanət məktubu olmadan təklifimiz konqres iştirakçılarının alqışları ilə qarşılandı.

2013-cü ilin 15 - 19 aprelində AİJA-nın geniştərkibli nümayəndə heyəti Soçi şəhərində təşkil olunan 78-ci konqresində növbəti ildə Bakıda keçiriləcək konqreslə bağlı AİPS və AİJA arasında müqavilə imzalandı, tədbirin son günü Rusiya Federasiyası baş nazirinin müavini Vitali Kozak, Ümumrusiya İdman Jurnalistləri Federasiyasının prezidenti Nikolay Dolqopolov ənənəvi olaraq AİPS-in bayrağını təntənəli şəkildə növbəti ildə konqresə evsahibliyi edəcək Azərbaycanın nümayəndələrinə təqdim etdilər.

2014-cü il aprelin 26-da Bakıda AIPS EUPOPE/UEPS-in Baş Assambleyası keçirildi. Burada növbəti dörd il üçün təşkilatın icraiyyə komitəsinə seçkilər keçirildi. AİJA-nın prezidenti Eldar İsmayılov 4 il əvvəl Antalyadakı qələbəsini yenilədi.

Həmin axşam konqres iştirakçılarının şərəfinə verilən ziyafətdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin parlaq nitqi qonaqların hafizəsində silinməz izlər buraxdı.

27 aprel-1 may 2014-cü ildə Bakıda AİPS-in 90 illiyinə təsadüf edən konqres müvəffəqiyyətlə keçdi.

Sonrakı illərdə də AİJA-nın beynəlxalq fəaliyyəti uğurla davam etdi və bu gün də davam etməkdədir.

***Nərgiz MAHMUDZADƏ,***
***Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının birinci vitse-prezidenti, AİPS-in üzvü***

# Azərbaycan müəlliminə Qələbədən dərs deməyin sevincini yaşadan lider

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi təxribatına cavab olaraq Ali Baş Komandan İlham Əliyevin başçılığl altında həyata keçirilən genişmiqyaslı əks-hücum əməliyyatları nəticəsində ordumuzun işğal altında olan torpaqlarımızı cəmi 44 gün ərzində mənfur düşməndən azad etməsi ilə nəticələnən möhtəşəm Qələbə hər bir Azərbaycan vətəndaşının qəlbində böyük sevinc, qürur hissi yaratdı.

Cəmiyyətimizin şərəfli, ziyalı zümrəsi olan müəllimlər də bu sevinci, fəxarəti halal haqq etdilər. Onlar da qələbənin qazanılmasına böyük töhfə verdilər. Vətən uğrunda gedən döyüşlərdə müəllimlərdən övladını, şagirdini, tələbəsini itirən də oldu və əlbəttə ki, qızğın döyüşlərdə iştirak edib şəhid olanlar da.

İndi şəhid müəllimlər - Lerik rayon Sors kənd ümumi orta məktəbinin tarix müəllimi **Elgün Quliyevin,** Abşeron rayonu, Masazır kənd 5 nömrəli tam orta məktəbin riyaziyyat müəllimi **Qoşqar Ömərovun,** Gəncə şəhəri, M.Ş.Vazeh adına 16 nömrəli məktəbin tarix müəllimi **Rəşad Məmmədovun,** İsmayıllı şəhəri, 3 nömrəli məktəb-liseyin tarix müəllimi **Famil Əhmədzadənin,** Naxçıvan Dövlət Universitetinin ingilis dili müəllimi ixtisası üzrə məzunu **Orxan Paşazadənin,** Ağstafa şəhəri 1 nömrəli tam orta məktəbin direktoru **Elvin İmaməliyevin** adları dillərdə əzbərdir. Torpaqlarımızı işğaldan azad edən bu qəhrəmanların igidliyi Azərbaycan tarixinə əbədi daxil olacaq və hər birimizin yaddaşında həmişəlik qalacaq. Allah şəhidlərimizə rəhmət eləsin.

Müzəffər Azərbaycan Ordusunun qalibiyyətlə apardığı əməliyyatlar nəticəsində hər yerdə bir-birinin ardınca bayrağımız ucaldıqca Təhsil Nazirliyi ictimaiyyətlə işğaldan azad olunan şəhər və rayonlarımızın təhsil statistikasını təqdim etdi. Təhsil Nazirliyi **"Qarabağın məşhur müəllimləri"** adlı layihəyə start verdi. Layihə çərçivəsində Qarabağda doğulan və vaxtilə pedaqoji fəaliyyətlə məşğul olan tanınmış şəxslər barədə məlumatlar təqdim olundu.

Təhsil Nazirliyinin **"Azərbaycan xalqının tarixi qələbəsinin tədrisdə əks etdirilməsi haqqında"** 2020-2021-ci tədris ili üçün Fəaliyyət Planı da təsdiq edilib. Məqsəd ölkəmizin işğal altında olan digər ərazilərinin azad edilməsində ordumuzun və dövlətimizin əldə etdiyi nailiyyətlərin təşviqinin aparılması, Azərbaycan Ordusunun şanlı qələbəsi barədə maarifləndirici tədbirlərin görülməsidir. 9 əsas istiqaməti əhatə edən planda Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Vətən müharibəsi dövründə Azərbaycan dövlətini şanlı qələbəyə aparan daxili və xarici siyasəti barədə ətraflı məlumatların verilməsi, Azərbaycan Ordusunun Vətən müharibəsində zəfər yürüşü və dünya hərb tarixində açdığı yeni səhifə ilə bağlı məlumatların bütün fənlərin məzmununa uyğun şəkildə inteqrasiyasının təmin olunması əksini tapıb.

Fəaliyyət Planında Qarabağ və işğaldan azad olmuş digər bölgələrin (yaşayış məntəqələrinin) tarixi və coğrafiyası, flora və faunası, mədəni abidələri, dini ibadətgahları, adət-ənənələri, şifahi xalq yaradıcılığı, tanınmış şəxsiyyətləri və s. barədə məlumatların dərslərə inteqrasiyası, müxtəlif layihə və tədbirlərin təşkili, vətəndaşlıq mövqeyinin formalaşmasında mənəvi və fiziki sağlamlıq amilinin əhəmiyyətinin təbliği əsas yer alır.

Həmçinin **"Çağırışaqədərki hazırlıq"** fənninin tədrisində şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, şagirdlərin hərbi idman oyunlarında fəal iştirakının təşviqi, bu oyunlarda hər bir məktəbin öz komandası ilə təmsil olunması, şagirdlərin ordu sıralarında xidmətə mənəvi-psixoloji cəhətdən hazırlanmasını təmin etmək məqsədilə ərazidəki hərbi hissələrlə əlaqələrin möhkəmləndirilməsi, əsgər və zabitlərlə görüşlərin təşkili də bu istiqamətlər sırasındadır.

Vətən müharibəsi şəhidlərinin anım günləri keçiriləcək, onların həyat və mübarizə yolunu əks etdirən videolentlər hazırlanacaq. **"Dərs vaxtı"** teledərs layihəsi çərçivəsində Vətən müharibəsinə, Azərbaycan Ordusunun şanlı qələbəsinə həsr edilmiş dərslər, videoçarxlar hazırlanması və telekanallarda yayımlanması nəzərdə tutulub. Bu çərçivədə noyabrın 21-də Təhsil Nazirliyinin dəstəyi və T-NETWORK təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə **"Şuşa dərsi"** təşkil edilib.

Azad edilmiş bölgələrdən olan, ömürlərinin baharı məcburi köçkünlükdə keçən orta yaşlı müəllimlər bir vaxtlar şagird kimi təhsil aldıqları məktəblərdə müəllim kimi fəaliyyət göstərməyi səbirsizliklə gözləyir, doğma torpaqlarına qayıdış ruhu ilə yaşayırlar. Çətinliklərlə dolu köçkünlük illərində çadır düşərgəsində, sonralar məcburi köçkün qəsəbələrində müəllimlik fəaliyyətini davam etdirən, vətənpərvər və hərtərəfli biliyə malik gənclərin hazırlanmasında qüvvə və bacarığını əsirgəməyən bu müəllimlər harada olublarsa, doğma yurd yerlərinə dönəcəklərinə inamlarını itirməyiblər, bu arzu, istəklə yaşayıblar.

Biz, təhsil işçiləri peşəmizlə fəxr edirik ki, Vətənin torpaqlarını yağı tapdağından azad edən, bu müqəddəs vəzifəni yerinə yetirərkən canından keçən övladları məhz Azərbaycan məktəbi və müəllimi yetişdirib. Bizim qədrimizi bəlkə də bizim özümüzdən də çox **"Mən dünyada müəllimdən şərəfli ad tanımıram"** deyən Ulu Öndər Heydər Əliyev, bizdən qayğısını əsirgəməyən Prezident İlham Əliyev bilib. Odur ki, bizə Qələbədən dərs deməyin sevincini yaşatdığına görə müzəffər Ali Baş Komandan İlham Əliyevə, onun yaratdığı və rəhbərlik etdiyi güclü, peşəkar və öz qüdrəti, bacarığı ilə dünyanı heyran edən Azərbaycan Ordusuna minnətdarlığımızı bildiririk.

Yaşasın Azərbaycan! Qarabağ bizimdir!

***Zaur VƏLİYEV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kollecin müəllimi***

Azərbaycanın qələbəsi, Ermənistanın isə biabırçı kapitulyasiya aktına imza atması labüd idi. Çünki faşist ideyaları ilə zəhərlənən istənilən xalq nə qədər döyüşsə də, son nəticədə mütləq təslim olmalı, haqqın və ədalətin qarşısında diz çökməlidir.



# Məğlubların faciəsi

## Ermənistanın düşməni qonşuları yox, ruhuna hakim kəsilmiş nasizmdir





Təəssüf ki, indi dizini yerə qoyan işğalçı ölkə bu sadə həqiqəti anlamaqda acizdir. Əsl dərd o deyil ki, müharibəni uduzasan, məğlub ediləsən. Faciə odur ki, sənə qələtini deyirlər, amma sən qanmırsan, deyiləni başa düşməyə ağlın çatmır. Həm də anlamamaq bir nəfərə aid olanda bunu bir dərd kimi qəbul etmək mümkündür. Lakin bütün Ermənistanın iqtidarlı-müxalifətli son nəfərinədək qanmazlıq mərəzinə yoluxması milli faciədir.

Müharibədə məğlub edilən bu ölkə nə baş verdiyini anlamaqda acizdir. Təslim olsa da, bundan dərs almaq, sülhə və barışa can atmaq, faşizm ideyaları ilə iliyinədək yoluxduğunu etiraf etmək əvəzinə kükrəyərək yeni və daha faciəvi savaş haqqında fikirləşir. Bəli, bu gün Ermənistanda bütün siyasi qüvvələr - iqtidar və müxalifət, erməni xalqının müxtəlif təbəqələrinin nümayəndələri və hətta 7-8 milyonluq erməni diasporu barış əvəzinə bir-birini ittiham edir, yeni savaş planlaşdırırlar. Hamısının da "ciddi arqumentlər"i var. Paşinyan öz "alibi"lərini sadalayır, keçmiş prezidentlər öz yozumlarını açıqlayır. Bütün siyasi qüvvələr və erməni xalqı isə meydanlarda və KİV-də düşmənlərini divarboyu düzüb ittiham edir, hökm oxuyur və cəza kəsirlər. Müqəssirlər isə bir deyil, iki deyil! Paşinyan və onun komandası, bütün siyasi partiyalar, erməni diasporu, Rusiya, Fransa, ABŞ... Bir sözlə, bütün dünya erməniləri havalanıb başladıqları müharibədə tək qoyduqları üçün günahkardır. Lakin heç kim etiraf etmir ki, faşizm ideologiyası ilə xəstələnmiş xalqı məhv edən onun nasist ideyaları, işğalçı ambisiyalarıdır. Günün reallığı belədir: ermənilərin özlərindən başqa düşməni yoxdur!

Sıravi ermənilərin sosial şəbəkələrdə yaydıqlarını oxuyanda nasizmin az qala beşikdəki körpənin də beyninə yeridildiyini aydın görürsən və barmağını dişləyib anlayırsan ki, bu xalq doğrudan da zavallı günündə imiş. Bir erməni qadın çiynində avtomatla Qarabağdan heç yerə getməyəcəyini, sonadək döyüşəcəyini bəyan edir. Üzünə yazılıb ki, aktyorluq edir, roldadır. Başqa bir yaşlı erməni isə ağzı köpüklənə-köpüklənə bağırır ki, türkləri son nəfərinədək qırmaq lazımdır: "Onlar xalq deyil, qəbilədir! Onlardan kimsə sağ qalmalı deyil! Yalnız bir nəfəri öldürüb başqalarına göstərmək üçün spirtdə saxlamaq lazımdır!" Digəri isə gözlərini bərəldir ki, o, azərbaycanlılarla bir yerdə yaşasa, hər gecə gəlib arvadının tumanını yoxlayacaqlar. Ermənilər hələ də özlərini hamıdan üstün, hamıdan ali sayır, qonşuları haqqında isə ikrahla danışırlar.

Yerevanda keçirilən mitinqlərdə qarşılıqlı ittihamlar ərşə dirənib. Hamı məğlubiyyətin səbəblərini araşdırır, günahkarları axtarır, yeni silahlar, PUA-lar eşqindədir. Paşinyan bütün siyasi qüvvələri, onlar da iqtidarı yalan danışmaqda, xalqı aldatmaqda suçlayır. Rusiya Ermənistana arxa çevirməkdə, kömək etməməkdə ittiham edilir. Ermənilərdən biri qəzəblə kameraya bağırır ki, "Putin, səni vəzifəyə mən gətirdim, amma sən erməni xalqını satdın!"

Moskvada erməni icmasının təmsilçiləri şimal qonşumuzu müharibəyə cəlb etmək üçün döyüşlər başlayandan sonadək təsir edə bildikləri bütün telekanallarda, kütləvi informasiya vasitələrində Qafqazda ruslarla türkləri toqquşdurmaqla yeni müharibə ocağını alovlandırmaq üçün cəhənnəm təri tökdülər. Erməniəsilli aparıcılar, politoloqlar efirlərdə zənciri qırılan köpəkləri xatırladırdı. Kreml isə ermənilərin bu "fədakar"lığını sadəcə qulaqardına vurdu, Türkiyə ilə əməkdaşlığa üstünlük verdi.

Yerevanda isə günü bu günəcən minlərlə ana hər gün küçələrə çıxır, Qarabağda itkin düşən uşaqlarını tələb edir, ölənlərin cəsədlərini istəyirlər. Heç bir dövlət qurumu onlara məlumat vermir. Ona görə ki, erməni hərb maşını Qarabağda öldürülən minlərlə əsgəri elə döyüşlərin ilk günlərindən Ermənistana daşımağa qorxur. Bilirlər ki, gətirsələr, Yerevan alt-üst olacaq. Üstəlik, Qarabağdan dabanına tüpürüb qaçan 10 mindən artıq fərari silahları ilə birlikdə Yerevandadır! Onları kim tərksilah edəcək, bilən yoxdur. 20 min erməni əsgəri silahı yerə qoyub Xankəndini tərk etməlidir. Onların da valideynləri uşaqlarını tələb edirlər... Özünü ali irq, hamıdan üstün, qəhrəman, qədim, döyüşkən sayan xalqın möhtəşəmliyi budurmu?

Ermənilərin istədikləri alınmadı. Çünki "Böyük Ermənistan" ideyası uydurmadır və bu, erməni faşizmini müəyyən məqsədlər üçün gündəmə gətirən ideologiyadır. "Əzabkeş, müdrik, qədim xalq" əfsanəsi bitdi. Bu məğlubiyyət Qarabağı cəhənnəmə çevirən erməni faşistlərinə Azərbaycan dövlətinin və ordusunun cavabıdır. Hər kəs layiq olduğuna sahib olur. Qarabağdan Yerevana yola çıxan tabut karvanlarının hələ bir müddət ardı-arası kəsilməyəcək. Ona görə də erməni siyasi elitası yenilməz, qəhrəman erməni mifindən əl çəkərək imzaladıqları sülh müqaviləsini - kapitulyasiya aktını bir də vərəqləsinlər və dərk etsinlər ki, faşizm ideologiyası bəşər tarixində kimsəyə nə qələbə, nə də başucalıq gətirib. Ermənilər nə kişi kimi döyüşdülər, nə də ləyaqətlə təslim oldular. Hətta kapitulyasiya aktını belə deyəsən gizlində, yorğanın altında imzaladılar.

Buna baxmayaraq, bəzi ermənilər zəif də olsa, fərqli fikirlər səsləndirməyə başlayıblar. Ermənistan Prezidentinin keçmiş məsləhətçisi, Miçiqan Universitetinin professoru Jirayr Liparityan ermənilərin faşizmə yoluxduqlarını birbaşa deməsə də, dolayısı ilə bunu təsdiq edir. Professor etiraf edir ki, ermənilər baş verən məğlubiyyətlə barışmalı və onu qəbul etməlidirlər: "Biz istənilən halda məğlub ediləcəyimiz müharibədən nəyin bahasına olursa-olsun qaçmalı idik, biz uzun illər Qarabağa yatırdığımız böyük insan və maliyyə kapitalını itirdik. Paşinyan Qarabağın rəhbərliyini danışıqlar masasına əyləşdirə bilmədi, hətta uzaq perspektivdə belə Qarabağın müstəqilliyini təmin etmək imkanını itirdi. Biz süverenliyimizin, müstəqilliyimizin, əminliyimizin və nikbinliyimizin böyük hissəsini itirdik".

J.Liparityan əslində birbaşa etiraf edə bilərdi ki, bu gün Ermənistanı məhv edən, onu əbədi müharibələrdə rəzil günə qoyan millətçi faşist ideologiyasıdır. Qafqazı sülh bölgəsinə çevirmək üçün bu ideologiyanı çarmıxa çəkmək, Yeravanda nasistlərə ucaldılan abidələri yıxmaq lazımdır. Erməni xalqı faşizmdən imtina etdiyi günün səhərisi Qafqazda kimin kim olduğunu dərk edəcək.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Ermənilərin ən böyük bəlası himayədarlarından gəlir

Sivil insan, sivil cəmiyyət üçün dialoq yaxşı, xoş məcrada dialoq isə ən yaxşı ünsiyyətdir. Bu mənada Fransa kimi dünyaya demokratiya dərsi keçmək istəyən Avropa ölkəsində baş verənlər təəccüb doğurmaya bilməz.

Fransızların həyat tərzi, onların cəmiyyətdə özlərini aparmaq qaydaları bu xalqın öz işidir. Bununla belə, bütün bəşəriyyətə şamil edilən elə normalar var ki, kifayət qədər mötəbər beynəlxalq təşkilatlar tərəfindən ciddi sənədlərlə, sazişlərlə, müqavilələrlə və s. nizamlanır və əməl olunması dünyanın hər bir ölkəsinin hər bir vətəndaşı üçün vacibdir. Bu sənədlər beynəlxalq hüquq və standartlarla, başqa sözlə, ümumbəşəri dəyərlərlə tənzimlənir. Kimin üçünsə əsas götürülməsi, kimin üçünsə qəbul edilməməsi mümkünsüzdür. Ən azı bu ölkələrin öz ləyaqətlərini, vicdani cavabdehliklərini, ədalət ölçülərini... itirmədiklərini təsdiqləmək üçün!

Fransanın Ermənistana dəstək verməsinə dair Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "əgər ermənilərə sevgiləri o qədər böyükdürsə, onda Marsel şəhərində ikinci bir erməni dövləti yaratsınlar" fikri ən dolğun, ən tutarlı, ən məntiqli cavabdır. Bu cavabın da Fransa Senatının ədalətsiz qərar çıxarmasına mane olmaması təəssüf və təəccüb doğurur. Avropa ölkəsində (artıq sivillikdən söhbət gedə bilməz) Senatın öz seçicilərinin səsi ilə bu qədər loyallıqla davranması xalqın özünə başucalığı gətirmir. Xəritədə Qarabağı göstərə bilməyən (sitat Senat üzvünündür), deməli, mövcud münaqişədən də xəbərsiz deputatların bu bölgənin ermənilərinə belə canfəşanlıqla dəstək verməlarinə ikiüzlülükdən, siyasi riyakarlıqdan başqa nə ad vermək olar?!

Fransa hökumətinin öz ölkəsi üçün istər polis zorakılığına rəvac verən yeni düzəlişi, istərsə pandemiyayla bağlı mitinqlərə, çaxnaşmalara, qarşıdurmalara gətirib çıxaran qanunları fransız deputatların, onların qanunverici orqanlarının vicdanına buraxmaq olar. Sabah, ya birisi gün Senat Ermənistan katalikosu Vazgenin, yaxud dünyaca məşhur erməni qadınının xahişi ilə fransız xalqının, Fransa dövlətinin əleyhinə hər hansı qərar çıxararsa belə dünyanın təəccüblənməyəcəyi şübhəsizdir. Bu imici erməni diasporunun himayəsi altında deputatlar digər millətlərdən olan seçicilərini aşağılayaraq formalaşdırıblar. Bu ölkənin erməni olmayan, yaxud erməni diasporuna bu və ya başqa şəkildə itaət etməyən vətəndaşlarına yazığımız gəlsə də, yenə təkrar edirəm ki, bu, Fransanın daxili problemidir.

Azərbaycan o ölkədir ki, Avropa hər dəfə demokratiya pultu arxasına keçmək istəyəndə hədəfi daşa dəyir. Bu proses onilliklərdir təkrarlanır. Özünü belə bir gülünc duruma salan fransız deputatının kiməsə irad tutması, tövsiyə verməsi, siyasi təzyiq göstərməsi hansı məntiqə sığır? İzah edin, sizin dünyanın nizamına, haqqa, ədalətə baxışlarınız budurmu? Axı çıxardığınız qərarlar ona dəlalət edir ki, siz ilk növbədə özünüz-özünüzə hörmət qoymağı öyrənməlisiniz, təkcə erməni vətəndaşlarınızın yox, digər seçicilərinizin də hüquqlarının müdafiəsi haqqında düşünməlisiniz. Öz ölkəsində bu qədər insan hüquqlarının pozulmasına səbəb olan Fransa Senatının Türkiyə və Azərbaycanla bağlı çıxardığı qərəzli qərarlar məncə, qara ləkə olaraq elə o dəhlizlərə hopacaq və qeyri-obyektiv qurumun terrorçu daşnaklara bir əsrlik havadarlığı qədər təsirsiz və nəticəsiz qalacaqdır.

Fransa ATƏT-in Minsk qrupunun 3 üzvündən biri kimi cavabdehlik daşıdığı 30 ildə kifayət qədər özünü tanıda bildi. Həmsədr ölkə nümayəndələrinin regionda turist səfərinə bənzər gəzişmələri nəyi həll etdi ki, bu və ya digər məsələdə özünü ortalığa atıb mən də varam deyir? Axı bu tarixi zəfərlə Azərbaycan həm də siz, BMT üzvlərinin üç onillikdə çözə bilmədiyi bir problemi kökündən həll etdi. Nəyə etiraz edirsiniz?! Məhz Azərbaycanın qələbəsi bölgədə sülh və əmin-amanlığa geniş imkanlar açır və sizlərin bu istiqamətdə səylərinizi artırmağınız daha böyük səmərə verərdi. Bunun ilk növbədə bacılıq etdiyiniz ermənilərə xeyri dəyərdi. Bu millətin ən böyük bəlaları sizin kimi himayədarlardan gəlir. Qızışdırıb silahlandıranlar da, müdafiə istehkamları tikənlər də, muzdlularınızı onların tərəfində döyüşməyə göndərənlər də sizsiniz. Bircə bədbəxt erməni xalqı bunu anlamır. Bir gün erməni xəyanətinin digər regionlara da sirayət edəcəyi şübhə doğurmur. Biz buna hazır olduq və qarşısını aldıq. Siz necə? Bu ikiüzlü, üçüzlü..., riyakar siyasətinizlə ölkənizi gələcək uçurumlara sürükləmirsinizmi? Döyüşdə Azərbaycan əsgərinin düşmən səngərlərini darmadağın etməsi süjetinə görə öz jurnalistini erməni vandallarından qorumağı bacarmayan Fransa qanunvericiləri yarım milyonluq banda qruplaşmalarının ölkədə iğtişaş yaratmalarına mane olmağı, mənafelərini ermənizmə qurban verdikləri vətəndaşlarından dəstək almağı bacaracaqlarmı? İkinci Dünya savaşında 45 günə faşistlərlə təslim aktı imzalayan Fransanın daxili çaxnaşmalar salmaqda xüsusi məharət sahibi olan daşnaklara qarşı duruş gətirə biləcəyi şübhə doğurur. Fransa Senatı digər bölgələrə nüfuz etmək həvəsinə düşməkdənsə bu suallara cavab axtarsa, bəşəriyyətdən daha çox öz xalqına böyük sədaqət göstərmiş olar.

Azərbaycan Respublikasının Prezidenti nə vaxt nəyi, necə etmək lazım olduğunu artıq bəyan edib. Xalq - İlham Əliyev, İlham Əliyev - xalq vəhdəti, inam və sevgisi sonsuzdur! Yad ünsürlərin bu vəhdəti pozmağa, bu inamı sarsıtmağa, bu sevgiyə nifaq toxumu səpməyə gücü yetməz!

Bizim sizlərdən umacağımız heç nə yoxdur. Hər hansı qərarı, o cümlədən Azərbaycan haqqında qərarı qəbul etməzdən əvvəl bir az da vicdanınızın səsinə qulaq asın. Özünüzə hörmət qoyun, o sənəddə ki, imzanız var, o yerdə ki, öhdəçilik götürmüsünüz, o beynəlxalq standartları ki, bir dövlət kimi səs verib qüvvəyə mindirmisiniz, dəyanətiniz olsun, əməl edin! Onsuz da nəyə, niyə səs verdiyinizin, hansı qərarları, necə, nə səbəbdən qəbul etdiyinizin fərqində deyilsiniz. Ona görə xatırlatma yerinə düşər: Qarabağ Azərbaycanın beynəlxalq miqyasda tanınmış ərazisidir, 27 sentyabradək düz 27 il Ermənistan silahlı qüvvələri tərəfindən əlavə 7 rayon da daxil olmaqla işğal altında saxlanılmışdı, təcavüzün aradan qaldırılması haqqında BMT-nin 4 qətnaməsi Azərbaycan zəfər çalanadək icra olunmamış qalmışdı. Və Azərbaycan Respublikasının Pezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, müzəffər Ordumuzun şücaəti sayəsində siz dünya "sülh carçılarının" edə bilmədiyini bizim xalq təkbaşına bacardı. İndi sülh prosesinə ümidlər artıb. O sülhə ki, sizin də ölkənizin töhfə vermək şansı yaranmışdı.

***Mahir CAVADLI***

Yerevandakı vəziyyət baş nazir Nikol Paşinyanın istefası tələbi ilə keçirilən mitinqlərin az qala gündəlik normaya çevrildiyini göstərir. Təbii ki, bu vəziyyət normal idarəçiliyi mümkünsüz edir, ölkədə anarxiyanın yeni dalğasına rəvac verir. "Qraparak" qəzeti yazır ki, baş nazirin istefa qərarını xalqa Yeni il müraciətində elan edəcəyi gözlənilir.

# Ermənistanda siyasi böhranın növbəti mərhələsi başlanır

















## Yerevanda kütləvi həbslər gözlənilir

Baş nazirin istefası tələbi ilə müxalifətin yürüşlərindən biri Yerevanın Qriqor Lusavoriç küçəsindən, sirk ilə üzbəüz meydandan başlayıb. Etirazçılar "Nikol, get!" şüarı səsləndiriblər.

Baş verənlər Nikol Paşinyanı çox ciddi narahat edir. Məsələ burasındadır ki, küçələrdə "öz fikrini ifadə etmək azadlığı" adı altında mitinqlər təşkil edə-edə hakimiyyətə gələn bu şəxs indi mitinqlərin onun karyerasına son qoyacağından qorxur. Erməni cəmiyyəti düşünür ki, hakimiyyət dəyişikliyi məhz küçə mitinqlərinə bağlıdır. Buna görə də müxalfətin mitinqləri Paşinyanı getdikcə daha çox narahat edir. Ermənilərin bədbəxtçiliyi ondadır ki, üzlərini hara çevirirlərsə, haqsızlıq və yoxsulluq görürlər. Buna görə də mitinqlər bütün istiqamətlərdə etirazlar üzrə davam edir. Müharibədəki məğlubiyyət isə etirazların miqyasını daha da böyüdüb.

Son mitinqdə çıxış edən Ermənistanın keçmiş hakim Respublika partiyasının mətbuat katibi Eduard Şarmazanov deyib ki, Qarabağ məsələsinin həlli üçün başqa çıxış yolunun qalmadığını görən Serj Sarkisyanın hakimiyyəti Nikol Paşinyana bu qədər asanlıqla təhvil verdiyini düşünənlər yanılırlar. Onun sözlərinə görə, Sarkisyan hakimiyyəti Paşinyana verməyib. Elə həmin xalqın tələbi ilə istefa verib.

"Joxovurd" qəzeti yazır ki, 22 dekabr tarixində Ermənistanda bütün müəssisə və universitetlərdə ümumi tətil elan edilib. Bütün ölkə kütləvi itaətsizliyə dəvət olunub. Bunu eşidən hakimiyyət hüquq mühafizə sisteminin nümayəndələrinə ayıq-sayıq olmağı, müxalifət liderlərini və fəalları müxtəlif bəhanələrlə həbs etməyi tapşırıb. Bildirilib ki, səbəb müxalifətin gündən-günə mübarizəni gücləndirməsidir. Bu gücü zəiflətmək və hökmranlıqlarını daha uzun müddətdə sürdürmək üçün hakimiyyət başqa variant görmür.

## "Müxalifətin baş naziri hakimiyyətdən uzaqlaşdırmaq gücü yoxdur"

Bir tərəfdən isə Ermənistanın Vatikandakı sabiq səfiri, S.Sarkisyanın kürəkəni Mikael Minasyan erməni ictimaiyyəti arasında N.Paşinyan barəsində mənfi rəy yaratmaq məqsədilə fasiləsiz iş aparır. Bu dəfə o, deyib ki, müxalifətin N.Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq gücü yoxdur. Qeyd edib ki, ondan tez-tez soruşurlar ki, Vazgen Manukyanın baş nazir postuna namizədliyini irəli sürən partiyalar nə qədər güclüdür və xalqdan dəstək alan müxalifət niyə kifayət qədər güclü deyil? "Deyə bilərəm ki, bu gün Ermənistanda vahid güc yoxdur, ya vətən xaininin tərəfindəsiniz, ya da ona qarşı mübarizə aparırsınız. Müxalifət-xalq münasibətləri siyasi sahəyə aiddir, bu gün gedən mübarizə isə nə siyasi, nə də hakimiyyət uğrundadır. Təəssüf ki, çoxları bu tələyə düşüb".

Keçmiş diplomat Paşinyanı həm də "dəli" adlandırıb: "Hakimiyyəti qəsb edən, ölkəni təslim olmağa aparan dəli ilə müxalifətin gücünün məntiqinə və alətlərinə görə mübarizə aparmırlar, əksinə, xain kimi mübarizə aparırlar. Ölkəni onlardan mümkün qədər erkən xilas etmək lazımdır".

O, Paşinyanın xəyanəti nəticəsində savaşda 5 mindən çox erməni hərbçisinin həlak olduğunu, minlərlə insanın itkin düşdüyünü iddia edib, hakimiyyət və müxalifətin vətən xainləri tərəfindən ələ keçirildiyini söyləyib.

Ermənistanın "Vətən" partiyasının üzvü Arsen Babayan da deyib ki, müxalifətin hakimiyyətə qarşı mübarizə aparmaq üçün kifayət qədər gücü yoxdur, amma Paşinyan istefa verənədək geri çəkilməyəcəklər.

Babayan Azərbaycan Prezidentinin hər kəsin gözü qarşısında Paşinyanı alçaltdığını, amma Ermənistan baş nazirinin ona cavab verməyə cəsarətinin olmadığını bildirib.

## Separatçıların lideri Qarabağdan qaçır

Separatçı rejimin "prezidenti" seçilməsindən heç bir il ötməmiş Araik Arutyunyan Yerevandakı işğalçıların əlində oyuncaq olduğunu, nəhayət, başa düşərək istefa verə biləcəyini açıqlayıb. Son hadisələr göstərir ki, Yerevanda artıq onu qəbul etmirlər. Özü də başa düşür ki, artıq heç kimdir. Onun adı hesabdan silinib, tarixin arxivinə göndərilib.

"Novosti Armenia" agentliyi Arutyunyanın açıqlamalarını sitat gətirərək məlumat verir ki, 44 günlük müharibədə ictimai qınaq yaradan üç məsələ var: "Əvvəla, müharibəni bu şərtlərlə 9 noyabrda bitirmək doğru idimi? Bir neçə dəfə bu suala vicdanla cavab verdim ki, o zaman alternativ böyük insan və ərazi itkiləri var idi. İkinci sual müharibəni nisbətən daha yaxşı şərtlərlə və az itkilərlə erkən bitirməyin mümkün olub-olmaması, üçüncü sual - Ermənistan ordusunu əvvəlcədən müharibəyə daha yaxşı hazırlamaq mümkün deyildimi?" Arutyunyan bu suallara cavab verməyib, amma istefaya hazır olduğunu açıqlayıb. Eyni zamanda o, partiya sədrliyindən imtina etdiyini bildirib.

Araik Arutyunyan Qarabağda böyük sərvət sahibi olması ilə bağlı tez-tez tənqidlərə məruz qalıb. Yerli sakinlər onu bizneslə siyasəti birləşdirərək sərvət toplamaqda, uzun illər Serj Sarkisyan və Robert Koçaryanın komandasında yer alaraq, 2018-ci ildə Paşinyanın hakimiyyətə gəlişindən sonra dərhal düşərgəsini dəyişməkdə ittiham edib.

Beləliklə, baş verən proseslər Ermənistanın üzləşdiyi ümumi böhranın daha da dərinləşəcəyindən xəbər verir və işğalçı ölkənin böyük sürətlə öz məhvinə doğru sürükləndiyini göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Biz birlikdə güclüyük!

# Koronavirusdan qorunmağın ən yaxşı yolu özünütəcriddir

*Əvvəli 1-ci səh.*





Hər kəsin diqqəti, fikri ön cəbhəyə, Azərbaycanın haqq savaşına yönəldiyi üçün koronavirus anlayışı aktuallığını itirmişdi. Xüsusən cəbhədə uğurlu əməliyyatların olması, vətəndaşlarımızın bu məsələyə münasibəti, demək olar ki, koronavirusla mübarizəni unutdurmuşdu. Məsuliyyətsizlik isə COVID-19 infeksiyasına yoluxma sayının kəskin artmasına rəvac verdi. Beləliklə, xüsusi karantin rejiminə, gigiyena qaydalarına riayət olunmaması, maskadan istifadənin azalması, distansiya saxlanılmaması Azərbaycanda sanitar-epidemioloji vəziyyətin pisləşməsinə səbəb oldu.

Nəticədə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən ölkədə sanitar-epidemioloji vəziyyət təhlil edilərək, infeksiyaya yoluxma sürətini azaltmaq, insanların bir-biri ilə yaxın təmaslarını minimuma endirmək məqsədi ilə ölkə ərazisində sərtləşdirilmiş xüsusi karantin rejiminin 18 yanvaradək tətbiq edilməsinə qərar verildi.

Dekabrın 14-dən Nazirlər Kabinetinin müvafiq qərarı ilə müəyyən edilmiş iş və xidmət sahələri istisna olmaqla, digər sahələrdə iş və xidmətlər dayandırılıb. Bütün ticarət, ictimai iaşə obyektlərinə, o cümlədən restoran, kafe və çay evlərinə müştərilərə yalnız çatdırma xidmətlərinin göstərilməsinə və ya onlayn satışa icazə verilib. Respublikanın bəzi bölgələrinə giriş-çıxış dayandırılıb, eləcə də hərəkət məhdudiyyəti tətbiq olunub. İcazəsi olan vətəndaşlar istisna olmaqla, digər şəxslər yaşayış yerlərini və olduqları yeri SMS-icazə ilə tərk edirlər.

## Qarşıdakı 3 ay çox kritik olacaq

ÜST-nin Azərbaycandakı nümayəndəsi Hande Harmancının sözlərinə görə, karantin rejiminin sərtləşməsi ilə bağlı qərar insanları qorumaq üçündür: “Hökumət hər qərarında həm insanların sağlamlığını, həm də iqtisadi vəziyyəti nəzərə alır. Bu, bütün dünyada belədir. Pandemiya əvvəldən onu göstərdi ki, dərman və vaksin olmadığına görə yoluxmanın azaldılması üçün ictimai səhiyyə tədbirlərinin tətbiqindən başqa “silahımız” yoxdur. Sərt karantin rejimi yoluxmanın azaldılmasına tez bir zamanda təsir edir. Ortalama inkubasiya dövrünü nəzərə alsaq, sərt karantin qərarından təxminən 1 həftə keçəndən sonra yoluxmanın sayı azalmağa doğru gedir. Səhiyyə üzərindəki yükü, gərginliyi azaltmalıyıq. Bu səbəbdən yoluxma sayının azalması lazımdır”.

H.Harmancı əlavə edib ki, qarşıdakı 3 ay çox kritik olacaq: “Yaz aylarında peyvəndləmənin tətbiq olunması yoluxma saylarının azalmasına səbəb olacaq. Gənc insanlar peyvənd olunduqca yoluxma da azalacaq”.

Artıq 5 gündür koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Nazirlər Kabinetinin qərarına əsasən, sərt karantin rejimi tətbiq olunan 5 şəhərin və 12 rayonun giriş və çıxışlarında quraşdırılmış xüsusi postlarda polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən nəzarət-profilaktiki yoxlamalar davam etdirilir.

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, 2020-ci il dekabrın 16-da həmin postlardan müvafiq icazə olmadan keçməyə cəhd göstərən 1607 nəqliyyat vasitəsi müəyyən olunaraq geri qaytarılıb. Eləcə də qeyd olunan müddətdə ölkə üzrə karantin rejimi qaydalarını pozan 2646 nəfər barəsində inzibati tənbeh tədbiri tətbiq olunub: “Bu istiqamətdə həyata keçirilən bütün tədbirlər əhalinin təhlükəsizliyinin təmin edilməsinə və onların sağlamlığının qorunmasına xidmət edir. Ona görə də vətəndaşlardan bir daha tətbiq edilən izolyasiya tədbirlərinə ciddi riayət etmələrini, operativ qərargahın bütün tövsiyə, təklif və qərarlarını anlayışla qarşılamalarını xahiş edirik”.

## Ağırlaşmaların qarşısını almaq üçün həkimə müraciət etmək lazımdır

Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, Köln Universiteti Klinikasının tibb elmləri doktoru, azərbaycanlı alim Nuran Abdullayev deyib ki, koronavirusdan sağalan şəxslərin tam sağaldıqdan 2-3 ay sonra yenidən yüngül də olsa hər hansı ciddi bir simptomları yaranarsa, bu zaman mütləq həkimə müraciət etməsi vacibdir. Çünki elmi tədqiqatlara əsasən, virusdan sağalan şəxslərin müxtəlif orqanlarında - ürəkdə, beyində, onurğa beynində və s. müxtəlif fəsadlara rast gəlinə bilər.

Onun sözlərinə görə, bu xəstəliyi yüngül simptomlarla keçirən insanların sağaldıqdan sonra müəyyən qisminin ürəyində patoloji dəyişikliklər yarandığı elmi tədqiqatlarla sübut olunub: “Xəstələrin beynində ola biləcək dəyişikliklərlə bağlı isə elmi hesabatın müəlliflərindən biri də mənəm. Yaxın günlərdə elmi ədəbiyyata daxil olacaq həmin hesabatda beyində və o cümlədən onurğa beynində COVID-19-un xəstəlikdən tam sağaldıqdan 2 ay sonra yaratdığı ciddi dəyişikliklərdən bəhs ediləcək. Halbuki həkimə bir az tez müraciət edilsəydi, xəstənin vəziyyəti hazırda tam normal ola bilərdi. Ona görə xəstəlikdən sağaldıqdan sonrakı dövrü xəstəlik zamanı yüngül simptomlarla keçən dövrlə eyniləşdirməməyi tövsiyə edirəm. Yüngül baş ağrısı, ürəkbulanma və ürəklə bağlı hər hansı simptomlar müşahidə olunarsa, bu zaman baş verə biləcək ağırlaşmaların qarşısını almaq üçün mütləq həkimə müraciət etmək lazımdır”.

Tibb elmləri doktoru bildirib ki, COVID-19-dan sağalan şəxslər arasında müəyyən müddət sonra halsızlıq, yorğunluq, öskürək və hətta subfebril qızdırma kimi simptomların qalıcılığı da müşahidə olunub. Bunlar hətta 2 aya qədər davam edə bilər. Ciddi yanaşı xəstəliyi olanların isə koronavirusu ağır keçirmə ehtimalı daha yüksəkdir: “Bu şəxslər bilməlidirlər ki, koronavirusdan sağaldıqdan sonra da yanaşı xəstəlikləri ilə bağlı müalicələrini davam etdirməli və həkim nəzarətində olmalıdırlar. Onda vəziyyətdən çıxmaq daha asan olur”.

## Koronavirusla mübarizədə əsas amil vətəndaş məsuliyyətidir

Təəssüf ki, bəzən insanlar özləri öz sağlamlıqlarına qarşı laqeyd yanaşırlar. Xəstəliyi yüngül keçirənlərin müəyyən hissəsi kimdənsə eşitdiyi, yaxud sosial şəbəkələrdə paylaşılan üsullardan, türkəçarələrdən istifadə edirlər ki, bu da ağırlaşmaların başlıca səbəbidir. Odur ki, həkim məsləhəti olmadan heç bir dərmandan istifadə etməyin.

İndiki məqamda koronavirusla mübarizədə əsas amil vətəndaş məsuliyyətidir. Bizim vətəndaş olaraq aparacağımız mübarizə, üzərimizə düşən məsuliyyət karantin qaydalarına riayət etməkdir. Qaydalara nə qədər çox riayət edilərsə, yoluxma da o qədər az qeydə alınar. Qaydalara əməl edilmədikdə isə yoluxma sayı artır. Bu gün hər kəs məsuliyyətli olmalı, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarlarına riayət etməli, özünü, yaxınlarını qorumalıdır.

Unutmayaq ki, peyvənd tətbiq olunana qədər dünyanı təşvişə salan bu dəhşətli virusdan ən yaxşı qorunma yolu özünütəcriddir. Yalnız məsuliyyətli, vicdanlı olmaqla, gərəksiz yerə evdən çıxmamaqla, özünütəcrid qaydalarına əməl etməklə bu xəstəliyin geniş yayılmasının qarşısını almaq olar. Durumun nə qədər riskli olduğunu anlamaq lazımdır. Bu çətin və təhlükəli dövrdə həyatımızı, gündəlik vərdişlərimizi evdə davam etdirməliyik. Çünki hazırda ən təhlükəsiz yer elə evimizdir. Odur ki, evimizdə qalaq, sağlam olaq!

*Xəyalə MURADLI,*
*“Azərbaycan”*

# Azərbaycanda koronavirus infeksiyasından 4205 nəfər sağalıb, 4124 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 4205 nəfər müalicə olunaraq sağalıb, 4124 yeni yoluxma faktı qeydə alınıb.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 38 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 191 min 460 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 127 min 64 nəfər müalicə olunaraq sağalıb, 2088 nəfər vəfat edib. Aktiv xəstə sayı 62308 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 16 min 3 test aparılıb. Dünənki test sayı isə 17426-dır.

# *İqtisadiyyat Nazirliyi:* Daha 5 siyasi partiya ofis sahələri ilə təmin olunub

Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, normal fəaliyyətin təmin edilməsi, iş şəraitinin yaxşılaşdırılması məqsədilə siyasi partiyaların dövlət mülkiyyətində olan qeyri-yaşayış sahələri ilə təmin olunması prosesi davam etdirilir.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Əmlak Məsələləri Dövlət Xidməti dekabrın 16-da daha 5 siyasi partiyaya ofis sahələrinin açarlarını təqdim edib. AĞ Partiya, Böyük Azərbaycan Partiyası, Milli Vəhdət Partiyası, Azərbaycan Naminə Alyans Partiyası, Milli Həmrəylik Partiyasının nümayəndələri fəaliyyət göstərəcəkləri ofislərlə tanış olublar.

Beləliklə, Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən son günlərdə artıq 10 siyasi partiya qeyri-yaşayış sahəsi ilə təmin olunub. Yaxın vaxtlarda digər siyasi partiyalara da ofis sahələrinin verilməsi nəzərdə tutulur.

# “YAŞAT” Fonduna “ASAN ödəniş” vasitəsilə də dəstək olmaq mümkündür

Prezident İlham Əliyevin fərmanı ilə yaradılan Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu - “YAŞAT” Fonduna “ASAN ödəniş” sistemi vasitəsilə də ianə etmək imkanı yaradılıb.




Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, fonda dəstək olmaq istəyən şəxslər www.asanpay.az portalında “Ən populyar ödənişlər” bölməsində ilk sırada olan “Yardım fondu” kateqoriyasına daxil olub, “YAŞAT” Fondu” bölməsini seçməklə ödənişi həyata keçirə bilərlər.

“YAŞAT” Fondu bölməsində üç kateqoriya - Azərbaycan vətəndaşları üçün, xarici vətəndaşlar üçün və anonim ödəniş kateqoriyaları mövcuddur. Azərbaycan vətəndaşları üçün ödəniş bölməsində şəxslər FİN (şəxsiyyət vəsiqəsində olan Fərdi İdentifikasiya Nömrəsi) və mobil nömrə, həmçinin VÖEN və mobil nömrələrini daxil etməklə ödənişlərini həyata keçirə bilərlər. Qeyd olunan mobil nömrə fond tərəfindən vətəndaşa gələcəkdə bildirişlərin göndərilməsində də istifadə olunacaq.

Xarici vətəndaş üçün ödəniş bölməsində Azərbaycan Respublikası ərazisində müvəqqəti və ya daimi qeydiyyatı olan şəxslərin miqrasiya vəsiqələrində olan FİN və mobil nömrə ilə, həmçinin ad və soyadla ödənişlərin həyata keçirilməsi mümkündür.

Anonim bölməsində isə kimliyinin bilinməsini istəməyən şəxslər ödənişlərini həyata keçirə bilərlər. Ödənişlər identifikasiya prosesindən keçdikdən sonra şəxslər kart məlumatlarını daxil edərək, ödənişlərini tamamlaya bilərlər.

Xatırladaq ki, çoxfunksiyalı “ASAN ödəniş” sistemi habelə cərimə, kommunal xidmət və digər ödənişləri qısa zamanda, təhlükəsiz və rahat şəkildə həyata keçirmək imkanı yaradır. 280-dən çox qurumun cərimə, rüsum, kommunal, lizinq, kredit, icarə haqqı və digər ödənişləri “ASAN ödəniş” sisteminin www.asanpay.az ödəniş portalı və terminalları, eləcə də Android və İOS platformalarında “ASAN ödəniş” mobil tətbiqi vasitəsilə təmin edilir.

# “YAŞAT” Fonduna ianə edən vətəndaşların nəzərinə!

Son günlər “YAŞAT” Fondunun adından istifadə edilməklə vətəndaşlara ianələrin ödənişi üçün saxta hesab nömrələri, linklər təqdim olunur, sosial şəbəkələrdə saxta səhifələr yaradılır.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən AZƏRTAC-a bildiriblər ki, həmin linklərdə, sosial şəbəkələrdəki paylaşımlarda tamamilə təhrif olunmuş məlumatlar əks olunur.

Agentlik bildirir ki, bu cür addımların həyata keçirilməsi yolverilməzdir və həmin şəxslər barəsində qanunauyğun, tam ciddi məsuliyyət tədbirləri həyata keçiriləcək.

Bu cür hallarla qarşılaşan vətəndaşlarımızdan xahiş olunur ki, “YAŞAT” Fondunun sosial şəbəkələrdəki səhifələrinə və 108 “Çağrı” Mərkəzinə müraciət etsinlər.

“YAŞAT” Fondunun sosial şəbəkələrdəki səhifələri aşağıdakılardır:

“Facebook” - https://www.facebook.com/YASHATFondu

“Instagram”- https://www.instagram.com/yashatfondu/

“Twitter” - https://twitter.com/yashat_fondu

“Linkedin” - www.linkedin.com/company/yaşat-fondu/

Fonda vəsait onlayn qaydada elektron ödəmə portalları, SMS vasitəsilə, bank köçürməsi vasitəsilə və ödəmə terminalları vasitəsilə toplanılacaq. Hazırda “ASAN ödəniş” portalı vasitəsilə də fonda ianə göndərmək mümkündür. Keçid: https://asanpay.az/

“YAŞAT” Fondunun bank rekvizitləri ilə http://vxsida.az/az/annouces/1493 keçidi vasitəsilə tanış olmaq olar.

# Araz çayı üzərində tikilməkdə olan iki layihə üzrə Texniki Komissiyaların iclasları keçirilib

Azərbaycan və İran İslam Respublikası arasında Araz çayı üzərində tikilməkdə olan Xudafərin-Qız qalası və Ordubad - Marazad layihələri üzrə Texniki Komissiyaların növbəti iclasları Naxçıvanda keçirilib.

Bu barədə AZƏRTAC-a Energetika Nazirliyindən bildirilib.

“Ordubad” və “Marazad” Su Elektrik Stansiyalarının tikintisi və istismarı haqqında” Sazişlə tərəflərə həvalə edilmiş tapşırıqların, habelə “Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında” Sazişin müvafiq maddələrində nəzərdə tutulmuş tədbirlərin müzakirəsi məqsədilə müvafiq Texniki Komissiyaların növbəti görüşü dekabrın 14-16-da Naxçıvan Muxtar Respublikasında keçirilib.

İclasların əsas müzakirə mövzuları “Xudafərin” bəndində İran İslam Respublikası tərəfindən görülmüş işlər, su altında qalan Azərbaycan ərazilərinə dəyən ziyanın dəqiqləşdirilməsi və digər məsələlər olub. Görüşlər çərçivəsində, həmçinin “Ordubad” Su Elektrik Stansiyasının tikintisi aparılan əraziyə yerində baxış keçirilib və daha sonra tikinti prosesinin sürətləndirilməsi ilə bağlı geniş müzakirələr aparılıb. Eyni zamanda, “Marazad” SES-in tikilməsi ilə əlaqədar əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb. Görüşlərin davam etdirilməsi planlaşdırılır.


## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən bir sıra təhsil müəssisələrində qazanxana quraşdırılması və daxili istilik sistemlərinin təmiri işlərinin satın alınması məqsədilə 15.12.2020-ci il tarixdə keçirilmiş açıq tender prosedurunun nəticəsinə əsasən ALR İNVEST QSC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*



## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində “Sosial Xidmətlər Agentliyi” Publik Hüquqi Şəxsi *açıq tender elan edir*

- Agentliyin aparatı üçün ofis sahəsinin və anbarın icarəsi xidmətlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

| | |
|---|---|
| **İştirak haqqı:** | **100 (bir yüz) manat** |
| **Satınalan təşkilat:** | **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində “Sosial Xidmətlər Agentliyi” Publik Hüquqi Şəxsi** |
| **H.hesabı:** | **AZ88IBAZ38060019447403110206** |
| **VÖEN-i:** | **1405196831** |
| **Bank:** | **Azərbaycan Beynəlxalq Bankı, Nərimanov filialı** |
| **Kodu:** | **805540** |
| **VÖEN-i:** | **9900001881** |
| **Müxbir hesab:** | **AZ03NABZ01350100000000002944** |
| **S.W.İ.F.T BİK:** | **IBAZAZ2X** |

**Büdcə gəlirlərinin təsnifat kodu -142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması, son bir il ərzində riskli vergi ödəyiciləri ilə qarşılıqlı əməliyyatlarının olmaması (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir (30.10.2020-ci il tarixindən sonra alınmış arayış qəbul edilir));*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir (30.10.2020-ci il tarixindən sonra alınmış arayış qəbul edilir));*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatları);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Statistika Komitəsindən alınmalıdır. Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir (30.10.2020-ci il tarixindən sonra alınmış arayış qəbul edilir));*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 12.01.2021-ci il saat 15:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 21.01.2021-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 22.01.2021-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Binəqədi DOST Mərkəzinin əsaslı təmir işlərinin satın alınması (II mərhələ) üzrə təkliflər sorğusu elan edir

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**İştirak haqqı:** 200 (iki yüz) manat
**Satınalan təşkilat:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**VÖEN:** 1700093011
**Bank:** Dövlət Xəzinədarlığı Agentliyi
**KOD:** 210005
**MÜXBİR HESABI:** AZ41NABZ01360100000000003944
**VÖEN:** 1401555071
**SWIFT** BIK CTREAZ22
**H/HESABI:** AZ80CTRE00000000000002138501
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 22 dekabr 2020-ci il saat 18:00-dək qəbul olunur.

İddiaçıların təklifləri 23 dekabr 2020-ci il saat 11:00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakı şəhəri 4 saylı Binəqədi DOST Mərkəzinin əsaslı təmir işlərinin satın alınması (I mərhələ) üçün keçirilən təkliflər sorğusunda "AZTEX CONSTRUCTİON" MMC və "MAC Construction" MMC konsorsiumu qalib elan olunmuşdur.

Qalib təşkilatlarla müvafiq satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 21 dekabr 2020-ci il saat 13:00-da keçirilməsi nəzərdə tutulan "Bakı Metropoliteni" QSC üçün abraziv qumun satın alınması üzrə açıq tenderin vaxtı 29 yanvar 2021-ci il saat 14:00-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 19 yanvar 2021-ci il saat 14:00-a qədər, tender təklifi və bank təminatını isə 28 yanvar 2021-ci il saat 14:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Zığ GTTZ və Bibiheybət GTZ üçün sahil elektrik şitlərinin hazırlanması xidmətinin satın alınması məqsədilə *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** - səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 28 dekabr 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1171.**

***Tender komissiyası***

## "Sumqayıt Kimya Sənaye Parkı" MMC mebel avadanlıqlarının satın alınması üçün *kotirovka sorğusu keçirir*

Kotirovka sorğusu iştirakçılarına təklif edilir ki, qiymət təkliflərini möhürlənmiş və imzalanmış şəkildə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Prosedurda iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower"də yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs - Abbas Mamedov, telefon: 012-488-80-65.

İddiaçılar kotirovka sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *kotirovka sorğusunda iştirak etmək üçün müraciət;*
- *iddiaçının tam adı, təşkilatın hüquqi forması, nizamnaməsi, şəhadətnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, dövlət reyestrindən çıxarış və ƏDV ödəyicisinin qeydiyyat bildirişinin təsdiqlənmiş surətləri;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəllısi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olmasını təsdiq edən sənəd (əmr, təsisçilərin yığıncağının qərarı və s.).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Kotirovka sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar prosedurda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 22 dekabr 2020-ci il saat 18:00-dək "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 23 dekabr 2020-ci il saat 12:00-da Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower"də yerləşən ofisində, iclas zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən texniki avadanlıqların satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Kotirovka sorğusunun nəticələri haqqında Tender komissiyasının 14 dekabr 2020-ci il tarixli qərarına əsasən, "CASPEL" MMC qalib edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.
Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## "Azərbaycan İnvestisiya Şirkəti" ASC Neftçala Sənaye Məhəlləsində yerləşən sutəmizləyici qurğunun bioloji yolla təmizlənməsi üçün dərman vasitələrinin və qurğuda yaranan nasazlıqların təmiri xidmətlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan şirkətlər (012) 488-80-10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusu prosesində iştirak etmək üçün sənədlər 22.12.2020-ci il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Abşeron və Binəqədi DOST Mərkəzləri üçün İT infrastrukturunun qurulması üçün lazım olan avadanlıqların, proqram təminatlarının alınması və onların sazlanması işlərinin satın alınması" üçün keçirilən təkliflər sorğularında "B2B Group" MMC qalib olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 2 saylı Bakı DOST Mərkəzi inzibati binada yanğınsöndürmə balonlarının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) digər zəruri sənədlər 24 dekabr 2020-ci il saat 18:00-dək mərkəzin Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, Almas İldırım 30B ünvanında yerləşən ofisinə təqdim olunmalıdır. Telefon: 012 525-50-26, daxili 9234. Zərflər 25 dekabr 2020-ci il saat 11:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları 2 saylı Bakı DOST mərkəzinin AZ1044 Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, Almas İldırım 30B ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər.

***Tender komissiyası***

## A L L A H   R Ə H M Ə T   E L Ə S İ N !

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov akademik
**ƏDİLƏ ƏVƏZ QIZI NAMAZOVANIN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Ali Məhkəmənin sabiq aparat rəhbəri
**ƏLİRZA KƏRİMOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Elmira Süleymanova Əməkdar elm xadimi, akademik
**ƏDİLƏ NAMAZOVANIN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova və Biologiya və Tibb Elmləri Bölməsinin üzvləri Azərbaycanın görkəmli alimi və tanınmış pediatr, akademik
**ƏDİLƏ ƏVƏZ QIZI NAMAZOVANIN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan Şəhər Məhkəməsinin kollektivi Şirvan Apelyasiya Məhkəməsinin hakimi
**FUAD KAMİL OĞLU SOLTANOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7368
Sifariş 2855
Qiyməti 40 qəpik